## "YAŞAT" Fondu şəhid övladı və qazini əməliyyat etdirdi



**"YAŞAT" Fondu tərəfindən müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə işlər davam etdirilir.**

Fonddan "Şərq"ə verilən məlumata görə, Şəhid Elcan Rəhimlinin övladı Selcan Rəhimli və müharibə əlili Səbuhi Eyvazovun əməliyyat xərcləri Fond tərəfindən qarşılanıb.

"YAŞAT" Fondunun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə edə bilərsiniz.



## İsveç və Finlandiyanın NATO-ya üzvlük protokolu iyulun 5-i imzalanacaq

**İsveç və Finlandiyanın NATO-ya üzvlük protokolu iyulun 5-i imzalanacaq.**

Bu barədə NATO Baş katibi Yens Stoltenberq açıqlama verib.





## Qazimizə toyunda mənzil hədiyyə olundu

**Daha bir Vətən müharibəsi qazisinə toyunda mənzil hədiyyə edilib.**

Bu barədə Qarabağ qazisi, tanınmış jurnalist Rey Kərimoğlu məlumat yayıb.

"Əmək və əhalinin sosail müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Prezidentin adından toyu olan qazi Kənana üçotaqlı mənzilin açarlarını və sənədlərini təqdim etdi! Xoşbəxt olsun!", - o qeyd edib.

*R.Kərimoğlunun sözlərinə görə, toyda ƏƏSMN-in tabeliyində olan Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behdudov, Nizami rayon icra hakimiyyətinin başçısı Coşqun Cəbrayılov da iştirak edib.*


❒ № 114 (5636), 2022-ci il

Qiymıti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 iyul 2022-ci il (cümə)




## Azərbaycan və Ermənistan nümayəndələrinin yaxın vaxtlarda görüşü keçirilə bilər

**Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü yaxın zamanlarda mümkündür.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqroyan brifinqdə bildirib. Ermənistan Təhlükəsizlik Şurasının katibi qeyd edib ki, onlarda belə bir görüşün yaxın vaxtlarda keçirilməsinin mümkünlüyünə dair məlumat var. Qriqoryan, Azərbaycanla 4 əsas məsələnin, o cümlədən kommunikasiyaların açılmasının, delimitasiya və demarkasiya işlərinin və humanitar məsələlərin müzakirəsinin aparıldığını diqqətə çatdırıb.

## Misir Prezidentinin Azərbaycana səfəri planlaşdırılır



**Misir Prezidenti Əbdülfəttah əs-Sisinin Azərbaycana səfəri planlaşdırılır.**

Bunu Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı Konfransında Misir Senatının sədri Abdel Vahab Abedel Rzaeq bildirib.

O, Misir Prezidentinin razılaşdırılacaq vaxtda Azərbaycana səfər edəcəyini vurğulayıb. Misir Senatının sədri Əbdülfəttah əs-Sisinin Misir və Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyi münasibətilə təbriklərini də çatdırıb.

# Baydendən yaşıl işıq

## ABŞ Türkiyəyə F-16 təyyarələri satacaq



**İyunun 28-də İspaniyanın paytaxtı Madriddə başlayan NATO-nun Liderlər Zirvəsi başa çatıb. Görüşdən sonra açıqlamalar verən ABŞ prezidenti Co Bayden, "Havadan müdafiə sistemi üçün dəstək paketlərini açıqlayacağıq. NATO-nun hər qarışını müdafiə edəcəyik. Rusiyanın qalib gəlməsinə imkan verməyəcəyik" deyə bildirib.**

Bayden sözlərinə onu da əlavə edib ki, ABŞ Türkiyəyə F-16 təyyarələri satmalıdır:

"Konqresdən icazə almalıyıq və düşünürəm ki, bunu ala bilərik".

ABŞ Prezidenti vurğulayıb ki, İsveç və Finlandiya NATO-ya üzv olacaqlar.

Co Bayden verdiyi açıqlamada Vaşinqtonun yaxın günlərdə Ukraynaya əlavə 800 milyon dollarlıq silah yardımı elan edəcəyini bildirib:

"Ukraynanı lazım olduğu qədər dəstəkləyəcəyik. Rusiyanın qalib gəlməsinə imkan verməyəcəyik. Rusiya qlobal ərzaq və neft böhranına görə məsuliyyət daşıyır".

Bu arada məlum olub ki, Türkiyə F-16 təyyarələrinin alınması ilə bağlı ABŞ-a heyət göndərəcək.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun Madrid sammitindən sonra mətbuat konfransı zamanı deyib.

O qeyd edib ki, heyət üzvləri ABŞ-da Respublikaçılar Partiyasının üzvləri ilə görüşlər keçirəcək.

# Bərəkətimiz artacaq

## Türkiyə torpaqlarımızı icarəyə götürməklə istifadəyə yararsız yerləri də dirçəldəcək



**Azərbaycan və Türkiyə kənd təsərrüfatı sahəsində əməkdaşlıqla bağlı saziş imzalanacaq.**

Türkiyə mətbuatının yazdığına görə, bu barədə Türkiyənin Kənd təsərrüfatı və meşə naziri Vahit Kirişçi bildirib. Nazir qeyd edib ki, 10 ölkə ilə aqrar sahədə əməkdaşlıq barədə sazişin imzalanmasına hazırlıq görülür.

(səh.4)



## Sabirabadda əməliyyat

### Rüşvətə görə iki vəzifəli şəxs həbs edildi

Sabirabad Rayon İcra Hakimiyyəti başçısı Aparatının Məmarlıq və Tikinti şöbəsinin müdiri Qasımov Müşviq Vidadi oğlunun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

(səh.4)

## Əsgərimiz bədbəxt hadisə nəticəsində ölüb

### Hərbi Prokurorluqda istintaq aparılır



**Müdafiə Nazirliyinin hərbi qulluqçusu dünyasını dəyişib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, iyunun 29-da Əlahiddə Ümumqoşun Orduda xidmət edən hərbi qulluqçu əsgər Məmmədli Fazil Məzahir oğlunun xüsusi texnika ilə ehtiyatsız davranılması nəticəsində aldığı xəsarətlərdən ölməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanmaqla hazırda Hərbi Prokurorluqda istintaq aparılır.

## Daha 49 nəfər koronavirusa yoluxub

### Ölən yoxdur, 25 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, ölən yoxdur.

Azərbaycanda indiyədək ümumilikdə 793 273 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 368 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 188 nəfərdir.

Ölkədə son sutka ərzində 3 057, hazırkı dövrədək isə 6 964 085 test aparılıb.



## Narahatçılığa əsas yoxdur

Yoxluma sayı artsa da xəstəlik yüngülgedişli, müalicə müddəti isə qısa olacaq

(səh.4)



## "Paşinyan çalışır ki, türk agenti damğasından qurtulsun"

Həşim Səhrablı: "Buna görə də diqqətləri Azərbaycana yönəldərək özlərini zərərçəkən kimi göstərməyə çalışırlar"

(səh.5)





# "Biz Minsk qrupu ilə vidalaşmışıq"

## Azərbaycan Prezidenti: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər"

**"Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təkcə ölkələrimiz arasında həmrəyliyin gücləndirilməsinə deyil, parlamentlərarası əlaqələrin də inkişafına mühüm töhfə verəcək".**

Bunu iyunun 30-da Prezident İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışında deyib.

"Biz istəyirik ki, səsimiz qlobal səviyyədə duyulsun. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi irəli sürdüyümüz yeganə təşəbbüs deyil. Digər təşəbbüs isə Gənclər Şəbəkəsidir. Gələn ay Bakı daha bir mühüm tədbirə ev sahibliyi edəcək. Gənclər Şəbəkəsinin toplantısı Bakıda keçiriləcək", - dövlət başçısı bildirib.

**"Azərbaycan həm regional, həm də qlobal məsələlərdə öz mövqeyini nümayiş etdirib"**

**Prezident qeyd edib ki, Azərbaycan hər zaman həm regional, həm də qlobal məsələlərdə öz mövqeyini nümayiş etdirib:**

"Biz Qoşulmama Hərəkatının sədri kimi ədalətsizliyə qarşı, beynəlxalq hüququn qorunması uğrunda mübarizəmizi davam etdirəcəyik".

Ölkəmizin Hərəkata üzv dövlətlərin fəal dəstəyini daim hiss etdiyini vurğulayan dövlətimizin başçısı deyib: "Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi zamanı üzvlərin yekdil həmrəyliyini gördük. Ölkəmizin təşkilata sədrlik müddətinin uzadılması da üzv dövlətlərin Azərbaycana dəstəyinin göstəricisidir".

**"Azərbaycan koronavirusla mübarizədə beynəlxalq səviyyədə mühüm rol oynayıb"**

**Prezident vurğulayıb ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi COVID-19 pandemiyası vaxtına təsadüf edib.** Ölkəmiz pandemiyaya qarşı fəal mübarizə aparan ölkələrdən biri oldu və xəstəliklə mübarizədə aktiv rol oynadı: "Pandemiya dövründə 80-dən çox ölkəyə maddi yardım və humanitar dəstək göstərdik".

**Prezident qeyd edib ki, Ermənistanın işğalı nəticəsində bir milyondan çox azərbaycanlı məcburi köçkünə çevrilmişdi.**

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edən hər kəs 30 ilədək davam etmiş işğalın gətirmiş olduğu vandallığın və dağıntıların şahidi ola bilər.

**"Qoşulmama Hərəkatındakı dostlarımız Azərbaycana qarşı təxribatların qarşısını aldılar"**

"Azərbaycan otuz il böyük ədalətsizliklə üzləşmişdi. Biz torpaqlarımızı işğaldan azad edərək bu ədalətsizliyə son qoyduq".

Bu fikirləri də Prezident çıxışı zamanı söyləyib.

> "Bu gün ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir"

Bəzi ölkələrin Azərbaycana qarşı kampaniya apardıqlarını, iftiralar atdıqlarını təəssüflə qeyd edən Prezident deyib: "Bu, təkcə sözlərlə ifadə olunan kampaniya və ittihamlar deyildi, özünü başqa şəkildə də göstərirdi. Bəzi ölkələr bu barədə BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmışdılar. Lakin bizim Qoşulmama Hərəkatında olan dostlarımız bu cəhdin qarşısını aldılar. Beləliklə, Ermənistanın beynəlxalq səviyyədə Azərbaycana qarşı təxribatlarının qarşısı alındı. Mən buna görə sizə təşəkkür edirəm".

**"ATƏT-in Minsk qrupu sadəcə bir alətə çevrilmişdi"**

**Prezident İlham Əliyev əlavə edib:** "Biz işğala son qoyduq, ədaləti bərpa etdik. Mən 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısında qeyd etmişdim ki, biz beynəlxalq hüququ, ədaləti bərpa edəcəyik".

"Biz uzun illər, 30 il gözlədik ki, beynəlxalq ictimaiyyət tərəfindən bu məsələnin həlli tapılacaq və işğala son qoyulacaq", - deyən Prezident İlham Əliyev qeyd edib ki, bu məqsədlə 1992-ci ildə ATƏT-in Minsk qrupu təsis olunmuşdu. Qrupun funksiyası münaqişənin həlli, işğala son qoymaq idi. Lakin əksinə, ATƏT-in Minsk qrupu sadəcə bir alətə çevrilmişdi.

**Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur:**

"Biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq. Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

**"Bizim tarixi və mədəni irsimiz işğal dövründə ermənilər tərəfindən məhv edilib"**

**Azərbaycan Prezidenti daha sonra bildirib:** "Bizim tarixi və mədəni irsimiz işğal dövründə ermənilər tərəfindən məhv edilib. İşğaldan azad olunmuş ərazilərə səfər edənlər bu vəhşiliyin miqyasını öz gözləri ilə görürlər".

Dövlət başçısı bildirib ki, on minlərlə insan azad olunmuş ərazilərə səfər edib. Onların arasında xarici siyasətçilər, parlamentlərin sədrləri və üzvləri, ekspertlər və sadə vətəndaşlar da var.

"Məscidlərimizin təhqir olunmasını, mədəni abidələrimizə qarşı törədilən vəhşilikləri hamı görüb. Təəssüf ki, ermənilərin bu vəhşiliklərinə qarşı etinasızlıq nümayiş etdirilib", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**"Azərbaycan BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına tərəfdardır"**

İlham Əliyev söyləyib ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri cəmi bir neçə gün ərzində həyata keçirilir, Azərbaycana aid qətnamələr isə 28 il kağız üzərində qaldı: "Biz BMT Təhlükəsizlik Şurasında qərarlarının siyasi motivlərdən selektiv icrasına son qoyacaq islahatların aparılmasına tərəfdarıq", - dövlət başçısı bildirib.

**İsmayıl**

# Prezident İlham Əliyev Özbəkistan Senatının sədrini qəbul edib



**İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.**

Tənzilə Narbayeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyeva çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu vurğuladı, göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, səfərin çox məzmunlu olduğunu qeyd etdi. Səfər zamanı razılaşdırıldığı kimi, aidiyyəti dövlət qurumlarına tapşırıqların verildiyini, əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün bu məsələlərin müntəzəm olaraq nəzarətdə saxlanılacağını dedi. Dövlətimizin başçısı səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin nə dərəcədə güclü olduğunu bir daha nümayiş etdirdiyini bildirdi.

Bakıda keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın vacibliyini vurğuladı, hazırda Hərəkatın təsisatlanması istiqamətində Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin həyata keçirildiyini qeyd etdi.

Tənzilə Narbayeva Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin Prezident Şavkat Mirziyoyevə və Özbəkistan xalqına dərin təəssürat hissi bağışladığını xüsusi olaraq vurğuladı. Bu səfərin nəticəsi olaraq Özbəkistan rəhbərliyi tərəfindən müvafiq qurumlara göstərişlərin verildiyini bildirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edən Tənzilə Narbayeva Ulu Öndərin Özbəkistan ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd etdi, Prezident İlham Əliyevin onun siyasətini uğurla davam etdirdiyini dedi.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını qeyd edən Özbəkistan Senatının sədri ölkəmizə səfəri çərçivəsində Şuşaya gedəcəklərini vurğuladı. Qonaq bu gün Azərbaycanın dünyada siyasi, iqtisadi və humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrildiyini qeyd etdi.

Tənzilə Narbayeva Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının müvəffəqiyyətlə keçirildiyini deyərək bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi. O, bu tədbirin keçirilməsi ilə bağlı təşəbbüsün müəllifinin məhz Prezident İlham Əliyev olduğunu xüsusi vurğuladı, Azərbaycanın çox səmərəli şəkildə Hərəkata sədrlik etdiyini söylədi.

Söhbət zamanı ölkələrimiz arasında parlamentlərarası əlaqələrin vacibliyi qeyd olundu. Parlamentlərin dövlət başçıları tərəfindən əldə olunmuş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verəcəyi xüsusi vurğulandı.

Qonaq ölkəmizə hər səfərlərində Bakıda böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirdi.

# "Mən verilən vədə baxıram"

## Türkiyə lideri: "İsveç və Finlandiya öhdəliklərini yerinə yetirməsə, NATO-ya üzv olmalarına icazə vermərik"



**"Finlandiya və İsveçlə imzalanan anlaşma memorandumu bir başlanğıcdır, dəvətdir. Əsl olan verilən sözlərin həyata keçirilməsidir".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun Madrid sammitinin yekunlarına dair mətbuat konfransında deyib.

"Bundan sonrakı prosesdə anlaşma memorandumunda qeyd olunan xüsusların tətbiq olunmasını diqqətlə izləyəcəyik və addımlarımızı buna uyğun atacağıq", - dövlət başçısı bildirib.

Türkiyə lideri vurğulayıb ki, İsveç və Finlandiya əvvəlcə öz öhdəliklərini yerinə yetirməlidir: "Bundan sonra biz də məsələni parlamentimizdə müzakirə edərik. Əgər onlar öhdəliklərini yerinə yetirməsələr, biz buna icazə verməyəcəyik. Makedoniya 20 ildə NATO-ya üzv oldu. Bu, o qədər asan məsələ deyil. Bunu İsveç də, Finlandiya da bilir.

Mən verilən vədə baxıram. Əgər vəd yerinə yetirilməzsə, anlaşma pozular. Əgər terrorçular bizə verilməzsə, ondan sonra bizdən inciməsinlər. Verilən söz tutulmalıdır. Ləyaqətli siyasət budur".



# Amfibiya təyyarəsi Türkiyədən Azərbaycana qayıdıb

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Türkiyədə meşə yanğınlarının daha geniş miqyas almasına imkan verilməməsi və söndürülməsi üçün qardaş ölkəyə köməklik məqsədilə göndərilmiş Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə ölkəmizə qayıdıb.**

Qarşısında qoyulmuş tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirən və yerli yanğınsöndürmə qüvvələri ilə birgə yanğınların tam söndürülməsinə nail olan amfibiya təyyarəsi dünən saat 14:25-də Heydər Əliyev Beynəlxalq Aeroportuna eniş edib.

Qeyd edək ki, Türkiyənin Milli Müdafiə Nazirliyi meşə yanğınlarının söndürülməsində iştirak etmiş FHN əməkdaşlarına təşəkkür edib.

Dalaman Hava Limanında keçirilən mərasimdə iştirak edən Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Hava Hazırlığı komandiri general-leytenant Ziya Cemal Kadıoğlu Milli Müdafiə Nazirliyinin rəhbərliyi adından Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarəsinin heyət üzvlərinə təşəkkürünü bildirib, onlara qiymətli hədiyyələr təqdim edib.

*Xatırladaq ki, iyunun 24-dən Azərbaycandan gedən yanğınsöndürənlər Muğla bölgəsində əməliyyata başlayıblar.*

*Qardaş Türkiyə Respublikasının Muğla bölgəsində meşə yanğınları iyunun 21-dən başlayıb.*

# Daha 7000-dən artıq vətəndaşa "Müharibə veteranı" adı veriləcək

## Bu barədə MN rəsmi "Facebook" səhifəsində məlumat yayıb

**Müdafiə Nazirliyinin (MN) tərkibində fəaliyyət göstərən komissiya tərəfindən 7000 nəfərdən artıq vətəndaşın da Vətən müharibəsində iştirakı ilə bağlı məlumatlarının araşdırılması yekunlaşdırılaraq sənədləri "Müharibə veteranı" adının verilməsi məqsədilə qərar qəbul edilməsi üçün müvafiq komissiyaya göndərilib.**

Bu barədə MN rəsmi "Facebook" səhifəsində məlumat yayıb.

Məlumata görə, arayış-məlumatları göndərilən vətəndaşlar barədə qərar qəbul edildikdən sonra onların da adları "Müharibə veteranı" adının verilməsi üçün "Zəfər" altsisteminə daxil ediləcək.

Bundan sonra onlara da Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün (80 AZN) təyin edilməsi və 2022-ci ilin yanvar ayının 1-dən hesablanaraq ödənilməsi təmin olunacaq.

*Qeyd edək ki, bu günədək Vətən müharibəsində iştirak etmiş 76000 nəfərə "Müharibə veteranı" adı verilib.*

# "Pasient hüquqları haqqında" qanun layihəsi hazırlanır

**"Pasient hüquqları haqqında" yeni qanun layihəsi hazırlanır. Bunu APA-ya açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Sədaqət Vəliyeva deyib.**

O bildirib ki, pasientlərin hüquqları haqda qanun layihəsi özündə tibb işçilərinin öhdəlik və hüquqlarını, həmçinin ağırlaşmalar zamanı pasiyentin yaxınlarının üzərinə düşən vəzifələri ehtiva edəcək: "Çünki elə hallar olur ki, həkimə son məqamda müraciət olunur. Bu da pasientin həyatında ciddi fəsadlar, hətta ölüm riski yarada bilər. Xüsusilə, himayəsində yetkinlik yaşına çatmayan uşaqlar və sərbəst qərarvermə qabiliyyəti olmayan şəxslərin qəyyumlarının öhdəlikləri də qeyd olunacaq. Bu layihədə həmçinin yuxarıda qeyd olunan hallarda görüləcək zəruri hüquqi tədbirlər də öz əksini tapacaq. Bu çox geniş bir layihədir və hazırda üzərində təkmilləşdirmə işləri aparılır".

# Putin çağırış etdi

## "Rusiya strateji sabitlik və nüvə silahlarının yayılmaması ilə bağlı dialoqa açıqdır"



**Rusiya bunda maraqlı olan hər kəslə münasibətləri inkişaf etdirir, Moskva strateji sabitlik və nüvə silahlarının yayılması ilə bağlı dialoqa açıqdır.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya prezidenti Vladimir Putin X Sankt-Peterburq Beynəlxalq Hüquq Forumunun iştirakçılarına müraciətində bildirib.

"Rusiyanın beynəlxalq məsələlərdə gündəliyi həmişə konstruktiv olub və konstruktiv olaraq qalır. Biz bunda maraqlı olan hər kəslə çoxqütblü münasibətləri inkişaf etdiririk, BMT, G20, BRİKS, ŞƏT və digər birliklərdə əməkdaşlığa böyük əhəmiyyət veririk", - deyə Rusiya prezidenti vurğulayıb.

Putin qeyd edib ki, Rusiya strateji sabitliyin təmin edilməsi, kütləvi qırğın silahlarının yayılmaması rejimlərinin saxlanması, silahlara nəzarət sahəsində vəziyyətin yaxşılaşdırılması üzrə dialoqa açıqdır: "İqlim gündəmi, aclıqla mübarizə, ərzaq və enerji bazarlarının sabitliyinin təmin edilməsi, beynəlxalq ticarət və rəqabət üçün ədalətli qaydalar kimi həyati vacib mövzularda səylərimizi birləşdirməyi hədəfləyirik".




# Aşqabadda təməl möhkəmləndi

## Xəzər dənizi beynəlxalq nəqliyyat qovşağına çevrilir

**İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı keçirilib. Toplantıda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında deyib ki, Azərbaycan ölkələrimizin Xəzərdə qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verir:**

"Bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına çalışmaq sahilyanı dövlətlərin əsas prioritetləri olaraq qalır".

Ölkə başçısı həmçinin qeyd edib ki, nəqliyyat infrastrukturunun inkişafı, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılması əməkdaşlığın mühüm istiqamətidir. Nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır.

**Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov də "Şərq"ə açıqlamasında ölkə başçısının Aşqabad səfərinin mühüm siyasi və iqtisadi əhəmiyyətə malik olduğunu deyib.** Onun sözlərinə görə, Azərbaycan Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi, həmçinin dənizlə bağlı beynəlxalq əməkdaşlığın dərinləşməsi üçün görülən işlərdə hər zaman ön sırada olub. Azərbaycanın Xəzərlə bağlı önəm verdiyi əsas məsələ isə Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilməsidir: "Təsadüfi deyil ki, Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında 5 Xəzəryanı ölkə lideri ilə müzakirə edilən əsas məsələlərdən biri də məhz bu mövzu olub. Xəzər hövzəsində yerləşən ölkələrin demək olar ki, hər birinin zaman-zaman Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik böyük beynəlxalq nəqliyyat qovşağına çevrilməsi istiqamətində təşəbbüsləri olub. Azərbaycan Prezidenti də növbəti dəfə bu məqamın üzərində xüsusi olaraq dayandı. Dövlət başçısı bəyan etdi ki, nəqliyyat infrastrukturunun inkişafı, nəqliyyat xidmətlərinin və multimodal daşımaların keyfiyyətinin yaxşılaşdırılması əməkdaşlığın mühüm istiqamətidir. Nəqliyyat sahəsində Xəzəryanı dövlətlər arasında bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələr Xəzər dənizi regionunun inkişaf etmiş infrastruktura malik iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır".

**İ.Hüseynovun sözərinə görə, 44 günlük Vətən müharibəsində qazandığımız zəfərdən sonra Azərbaycanın dünyada nüfuzu artıb, Cənubi Qafqazda geostrateji imkanlar bir qədər genişlənib və iqtisadi imkanların dərinləşdirilməsi üçün münbit şərait formalaşıb:** "Prezident İlham Əliyevin Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında məhz region dövlətlərini bir sıra sahələrdə əməkdaşlığın artırılmasına dəvət etməsi də Azərbaycanın Xəzəryanı ölkələrin qarşılıqlı fəaliyyətinə böyük əhəmiyyət verməsindən qaynaqlanır".

**Politoloqun fikrincə, Xəzər dənizi vasitəsi ilə karbohidrogen ehtiyatların kəşfi, hasilatı, yaxud onların yüklənməsi və boşaldılması ilə bağlı bu cür görüşlərin mütəmadi keçirilməsini şərtləndirir:** "Xəzərin dibinin delimitasiyası məsələsi siyasi gündəlikdə ən ön sıralarda dayanıb. Xəzər regionunda sülhün və sabitliyin daha da möhkəmləndirilməsi üçün bu cür fikir ayrılığı yaradan mübahisələrin gündəlikdən qalxması zəruridir. Düşünürəm, Azərbaycanın bu istiqamətdəki mövqeyi Xəzər hövzəsində olan digər dövlətlər tərəfindən də qəbul olunur".

İ.Hüseynov eyni zamanda Mərkəzi Asiya ölkələrinin son vaxtlar Azərbaycana qarşı marağının xeyli dərəcədə artmasından bəhs edib: "Cənab Prezidentin Türkmənistandan əvvəl Özbəkistanda dövlət səfərində olması bunu sübut edir. Və Zəngəzur dəhlizi kontekstində digər türkdilli ölkələrlə Azərbaycanın dostluq və əməkdaşlıq əlaqələrinin inkişafını görürük. Azərbaycan Mərkəzi Asiya dövlətləri üçün qərbə çıxış imkanıdır və bir növ tranzit rolu oynayır. Türkmən qazının Azərbaycan və İran vasitəsilə qərbə nəql olunması istiqamətində gedən danışıqlar da bu əməkdaşlığın tərkib hissəsidir və əldə olunan razılıqların daha da inkişaf etdirilməsi perspektivləri əsas müzakirə obyektlərindən biridir. Düşünürəm ki, Xəzər hövzəsində olan dövlətlər arasında iqtisadi inteqrasiyanın daha da genişləndirilməsi ilə bağlı qarşıya qoyulan hədəflərin reallaşması istiqamətində mühüm addımlar atılacaqdır".

**Şəymən**

# "Hər ölkə fərqli mövqelərə sahibdir"

## "Alternativlərə Zəngəzur dəhlizi və Xəzər dənizindən keçən kommunikasiyalar daxildir"



**Azərbaycan Prezidenti İlham Əliyev iyunun 29-da Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak edib. Dövlət başçılarının VI zirvə toplantısı növbəti dəfə gündəlikdə dayanan məsələlərin müzakirəsi baxımından əhəmiyyət daşıyıb.**

Toxunulan məsələlərdən biri də Zəngəzur dəhlizi olub. Yeni reallıqları nəzərə alaraq, vurğulamaq lazımdır ki, Zəngəzur dəhlizi gələcəkdə iqtisadi planda təkcə Azərbaycan üçün deyil, həm də Xəzəryanı ölkələr üçün olduqca böyük fürsətə çevriləcək. Həmçinin bu dəhliz nəqliyyat-kommunikasiya qovşağına çevriləcək Xəzər regionunda Azərbaycanın oynadığı mühüm rolun daha qabarıq gözə çarpmasına səbəb olacaq. Ölkə başçısı İlham Əliyev də öz nitqində dəhlizin artıq reallığa çevrildiyini vurğulayıb: "Bu il Azərbaycanda Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin koordinasiya şurasının VIII görüşünün keçirilməsi də planlaşdırılır. Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb. Zəngəzur dəhlizi artıq reallığa çevrilir".

**Zirvə toplantısını və müzakirə olunan mövzuları "Şərq"ə beynəlxalq məsələlər üzrə ekpert Əziz Əlibəyli şərh edib. O bildirib ki, hazırda bölgənin imkanları nəzərdən keçirilir:** "Yeni dünya üzərindən Avropa, ABŞ, Rusiya, toqquşmasının bir də Aralıq cəbhəsi var. Bu, Çin və Rusiya arasındakı ərazidir. Ümumiyyətlə, Qərbin Rusiyaya dair planı müharibənin nəticələrinə görə məlum olacaq. Rusiyanın alternativlərdən nə cür istifadə edəcəyi maraqlıdır. Alternativlərə Zəngəzur dəhlizi və Xəzər dənizindən keçən kommunikasiyalar daxildir. Amma burada da mövcud problemlər var".

**Ekspertin sözlərinə görə, Xəzəryanı ölkələrin mövqeyi üst-üstə düşmür:** "Hər ölkə fərqli baxışa sahibdir. Bu mənada Zirvə toplantısında müzakirələr Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İran arasında kommunikasiyaların işlək olmasına və faydalarına dair aparılır. Gələcəyə yönəlik hansı imkanlardan istifadə edə bilərlər, Xəzərdən keçməklə Çinə hansı alternativ dəhlizlər təhlükəsiz şəkildə qurula bilər və bunun kimi digər mövzular maraq dairəsində olmalıdır.

Həmçinin Zəngəzur dəhlizinin açılmasına Ermənistan tərəfinin mane olması ilə yanaşı, Əfqanıstandakı proseslər də maneə olur. Əfqanıstan uzun illər "Taliban" və yaxud ABŞ hakimiyyətinə bağlı olub.

Bu baxımdan Rusiya öz Xarici İşlər Nazirliyinə Əfqanıstanla münasibətləri ən üst səviyyəyə çatdırmaq üçün addım atmaq tapşırığı verdi. Çünki Çinə gedən yolun üstündə önəmli ölkələrdən biri də Əfqanıstandır. Əgər o, maneə olsa nə baş verəcək? Bu, çox ciddi və böyük problemlərdir".

**Çimnaz Şahlar**

# Prezident Qoşulmama Hərəkatının Bakı konfransında mühüm mesajlar verdi

## Cavid Osmanov: "Biz Azərbaycanın dünyada nüfuzunun daha da artmaqda olduğunu görürük"



**Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxış edib.**

Çıxışı zamanı prezident bildirib ki, Qoşulmama Hərəkatına sədrliyimiz COVID-19 pandemiyası vaxtına təsadüf etdi. Ölkəmiz pandemiyaya qarşı fəal mübarizə aparan ölkələrdən biri oldu və xəstəliklə mübarizədə aktiv rol oynadı. Pandemiya dövründə 80-dən çox ölkəyə maddi yardım və humanitar dəstək göstərdik.

Prezidentin bu çıxışı ölkəmizin beynəlxalq arenada nə qədər gücləndiyini göstərir. Lakin sosial mediada hələ də ölkəmizə mane olan dövlətlərin olduğu mövzusu geniş müzakirə edilir.

Azərbaycanın növbəti dəfə böyük bir tədbirə ev sahibliyi etdiyini deyən millət vəkili, YAP İdarə Heyətinin üzvü Cavid Osmanov qeyd edib ki, çoxlu sayda nümayəndə heyətinin iştirak etdiyi bu konfransa ölkəmizin təşkilatçılıq etməsi bizə olan böyük inamın təzahürüdür: "Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə parlament şəbəkəsinin təsis olunması ilə bağlı təşəbbüs irəli sürmüşdü. Ötən il Azərbaycan Respublikasının Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Madriddə keçirilən görüşdə Qoşulmama Hərəkatının parlament şəbəkəsinin təsis edilməsi reallığa çevrilmişdi. Konfransın açılış mərasimində prezident çıxış edərək bugünkü dünyada parlament diplomatiyasının nə qədər böyük rola malik olduğu və bu rolun daha da artırılması istiqamətində mühüm mesajlar verdi. Dövlət başçısı eyni çıxış zamanı ölkəmizin pandemiya dövründə bir çox ölkələrə maddi və humanitar yardımların göstərilməsi faktını xüsusi vurğulayıb. Əlbəttə ki, belə hallar ölkəmizi istəməyən qüvvələri, xüsusən də Ermənistan və ermənipərəst gücləri narahat etməkdədir. Azərbaycanın beynəlxalq qurum və təşkilatlara rəhbərlik etməsi, ölkəmizin Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada nüfuzlu və hörmətlə yanaşılan ölkələrdən birinə çevrilməsi belə qüvvələri narahat edir. Prezidentimizin də dəfələrlə qeyd etdiyi kimi belə hallarda biz daha da güclü olmalıyıq. 44 günlük Vətən müharibəsində qazandığımız zəfərdən sonra biz Azərbaycanın dünyada nüfuzunun daha da artmaqda olduğunu görürük. Bu gün dövlətimiz dünyada çox mühüm təşəbbüslər irəli sürən bir ölkədir. Dövlətimiz Cənubi Qafqazın lideri olmaqla yanaşı Avropanın enerji təhlükəsizliyini təmin edən, əlverişli logistika mərkəzinə çevrilən bir ölkədir. Azərbaycan dövlətinin gücü, qüdrətinin artması bəzi dairələri ciddi narahat edir. Bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha güclü və qüdrətli olacaqdır".

**Nihat Müzəffər**

# Azərbaycan və İran Xudafərin körpüsünü birgə bərpa edə bilər

**Mədəniyyət naziri Anar Kərimov İran İslam Respublikasının mədəni irs, turizm və əl işləri sənayesi naziri Seyid İzzətulah Zərqami ilə görüşüb.**

Mədəniyyət Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, Anar Kərimov görüş zamanı iki dost ölkənin qədim tarixə malik münasibətlərinin təməli qarşılıqlı etimad üzərində qurulduğunu vurğulayıb. Həmçinin mədəni və humanitar sahədə əməkdaşlığın önəmindən danışıb.

Dəvət üçün nazirə təşəkkürünü bildirən Seyid İzzətulah Zərqami də öz növbəsində ölkələrimiz arasında tarixən mövcud olan və uğurla davam edən möhkəm dostluq münasibətlərində bu gün kütləvi informasiya vasitələrinin də böyük rolu olduğunu vurğulayıb.

Tərəflər həmçinin işğaldan azad olunmuş tarixi torpaqlarımızda dağıdılmış həm müsəlman, həm də xristian dininə aid məbədlərin eyni həssaslıqla bərpa olunduğunu bildirərək yüksək qiymətləndiriblər. Mədəniyyət paytaxtımız Şuşanın İslam dünyası üçün kəsb etdiyi yüksək dəyərdən danışıblar. Həmçinin qlobal problemlərdən sayılan islamofobiya ilə mübarizədə birgə əməkdaşlığın önəmi bildirilib.

Eləcə də Qarabağda davam edən yenidənqurma və bərpa işlərində İranın təcrübəsindən yararlanmağın vacibliyi vurğulanıb.

Xudafərin körpüsünün birgə bərpası məqsədilə Anlaşma Memorandumunun imzalanması barədə də fikir mübadiləsi aparılıb.

Görüş tərəfləri maraqlandıran bir sıra mövzuların müzakirəsi ilə davam edib.

# Böyük Britaniyanın Rusiyadakı səfiri XİN-ə çağırılıb

**Böyük Britaniyanın Moskvadakı səfiri Debora Bronnert Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb.**

APA-nın Moskva müxbirinin Rusiya Xarici İşlər Nazirliyinə istinadən verdiyi məlumata görə, Böyük Britaniya rəhbərliyinin Rusiya, onun rəhbəri və rəsmi hakimiyyət nümayəndələri, eləcə də Rusiya xalqı ilə bağlı açıq-saçıq, alçaldıcı bəyanatları ilə bağlı səfirə kəskin etiraz bildirilib. "Səfirə Böyük Britaniyanın səlahiyyətli nümayəndələrinin təhqiredici ritorikasının yolverilməz olduğunu bildirən xatirə qeydiyyat kitabaçası təqdim edilib. Layiqli cəmiyyətdə bu cür ifadələrə görə üzr istəmək adətdir. Bundan əlavə, Böyük Britaniya rəsmilərinin bəyanatları, xüsusən də Rusiya tərəfinin səsləndirdiyi iddia edilən "nüvə silahından istifadə ilə hədələr"lə bağlı qəsdən yalan məlumatların təkrarlanması təcrübəsinin yolverilməzliyi qeyd olunub", - deyə Rusiya XİN-in bəyanatında bildirilib.




# Qatar çoxdan gedib

## Erməni diasporasının Minsk qrupunu dirçəltmək cəhdi fiaskoya uğrayacaq

**ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsini nizamlamaq mandatı verilmiş Minsk qrupu 28 illik fəaliyyəti ərzində bu missiyanın həyata keçirilməsində heç bir nəticəyə nail olmayıb. Və indi, Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdikdən sonra, artıq onun fəaliyyətinə ehtiyac qalmayıb. Prezident İlham Əliyev də dəfələrlə Ermənistanda və istənilən digər ölkədə Minsk qrupu haqqında istənilən spekulyasiyaların mənasız olduğunu vurğulayıb.**

Ölkə başçısı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransındakı çıxışında da növbəti dəfə bu məsələyə toxunub: "Artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq.

Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

**Sosial Tədqiqatlar Mərkəzinin eksperti Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan və ona himayədarlıq edən hansısa qüvvələrin ATƏT-in Minsk qrupunu diriltmək cəhdləri qəbuledilməzdir:** "Minsk qrupu Azərbaycanla Ermənistan arasında olan Qarabağ münaqişəsini həll etmək məqsədilə yaradılmışdı. 30 ilə yaxın Minsk qrupu mandatından irəli gələn normal fəaliyyət göstərmədi və üzərinə qoyulan işi yerinə yetirmədi. Nəticədə Qarabağ məsələsini Azərbaycan beynəlxalq qanunlara, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əsaslanaraq öz gücünə həll etdi. 44 günlük müharibədən sonra Minsk qrupunun mandatı formal hala düşmüş oldu. Lakin Ermənistan və dünyadakı erməni diasporu çalışır ki, artıq fəaliyyəti sona çatmış olan Minsk qrupu yenidən dövriyyəyə girsin. Minsk qrupunu yenidən dirçəltməyə cəhdlərin heç bir mənası və məntiqi izahı yoxdur. ABŞ-ın yeni həmsədr təyin etməsi də formaldır və bununla nəyinsə dəyişməsi mümkün deyil və yerdəyişmələrin heç bir praktiki əhəmiyyəti olası deyil. Azərbaycanla Ermənistan arasında danışıqlarda, sülh prosesində, sərhədlərin delimitasiyası və demarkasiyası prosesində Rusiya, Avropa İttifaqının sədri iştirak edir. Ona görə də bundan sonra ATƏT-in Minsk qrupuna heç bir ehtiyac qalmayıb. ABŞ prosesdə Rusiyanın aktiv iştirakından ciddi surətdə narahatdır. Ona görə də Minsk qrupunu diriltməyə çalışır. Əsas məqsəd Rusiyanın və Avropa İttifaqı Şurasının regionda söz sahibi olmasının qarşısını almaqdır".

**Şəymən**



**Azərbaycan və Türkiyə kənd təsərrüfatı sahəsində əməkdaşlıqla bağlı saziş imzalayacaq. Türkiyə mətbuatının yazdığına görə, bu barədə Türkiyənin Kənd təsərrüfatı və meşə naziri Vahit Kirişçi bildirib. Nazir qeyd edib ki, 10 ölkə ilə aqrar sahədə əməkdaşlıq barədə sazişin imzalanmasına hazırlıq görülür. Həmin ölkələr arasında Azərbaycanla yanaşı, Venesuela, Qazaxıstan, Sudan və Əlcəzair də var. Onun sözlərinə görə, mümkün ərzaq böhranına qarşı tədbirlər görülür.**

# Bərəkətimiz artacaq

## Türkiyə torpaqlarımızı icarəyə götürməklə istifadəyə yararsız yerləri də dirçəldəcək



Mələhət Rzayeva

O qeyd edib ki, iqlim baxımından Türkiyədə istehsal edilməsi çətin olan məhsullar xaricdə icarəyə götürüləcək torpaqlarda əkiləcək. Kənd Təsərrüfatı Nazirliyi Latın Amerikası və Afrikanın bir neçə ölkəsində torpaqların icarəyə verilməsi ilə bağlı danışıqlara başlayıb. ”Bizə təkliflər edən ölkələr var: Azərbaycan, Venesuela, Qazaxıstan, Əlcəzair, Sudan. Bununla bağlı danışıqlar gedir”, - nazir bildirib. O əlavə edib ki, sözügedən ölkələrlə əməkdaşlıq üçün işlərə başlanılıb. Xatırladaq ki, dünyada kənd təsərrüfatı istehsalının azalacağı və ərzaq böhranının olacağı proqnozlaşdırılır.

**İqtisadçı Eyyub Kərimli ”Şərq”ə açıqlamasında kənd təsərrüfatı təyinatı üçün torpaqların icarəyə götürülməsi praktikasının dünyada mövcud olduğunu bildirdi:**

- Bu cür yanaşma dünya praktikasında var. Bir neçə ölkə bunu edib. Məsələn, İsrail dövləti bu sahədə böyük təcrübəyə malikdir. İsraildə torpaq sahələri yetərli olmadığından başqa dövlətlərin ərazilərində torpaq icarəyə götürür və məhsul becərirlər. Həmçinin kənd təsərrüfatı az inkişaf etmiş, münbit torpaq sahələri az olan dövlətlər də bu təcrübədən istifadə edir. Azərbaycan Ukrayna ilə həmin ölkə ərazisində buğda əkini üçün torpaq icarəyə götürülməsinə dair saziş imzalamışdı. Lakin hazırda davam edən Rusiya-Ukrayna münaqişəsi sazişin yerinə yetirilməsinə mane olur. Türkiyənin Azərbaycan torpaqlarını kənd təsərrüfatı məhsulları yetişdirmək üçün icarəyə götürmək istəyi bizim üçün hərtərəfli yaxşıdır. Çünki birincisi, Türkiyə bizə qardaş ölkədir. İkincisi, Türkiyədə kənd təsərrüfatı çox inkişaf edib. Mən Türkiyə kənd təsərrüfatını aqro-mədəniyyətin yüksək forması adlandırıram. Qardaş ölkənin kənd təsərrüfatı sektorunda ən son texnologiyalardan istifadə edilir, yeni innovativ yanaşmalar mövcuddur. Əlbəttə ki, bunun bizim kənd təsərrüfatının inkişafına böyük dəstəyi olacaq. Yeni texnologiyaları, məhsuldarlığın artırılması üsullarını öyrənəcəyik. Torpaqların kultivasiyası prosesi sürətlənəcək. Əkinə yararlı sahələr genişlənəcək. Hansı məhsula daha çox ehtiyac olduğu bilinəcək, hansı məhsulun yetişdirilməsindən daha çox gəlir əldə etmək mümkündür, bilinəcək. Hazırda bizdə kənd təsərrüfatı təyinatlı torpaqlarda əsasən pambıq əkilir. Amma qarşıdakı illərdə hansı məhsullara daha çox ehtiyac yaranacaq, bunu bilməliyik və kənd təsərrüfatının təyinatını ehtiyaca uyğun olaraq dəyişməyi də bacarmalıyıq. Türkiyəli mütəxəssislər bu işdə bizə əhəmiyyətli kömək edəcək, dəstək olacaqlar.

**E.Kərimli qeyd etdi ki, əgər Türkiyə Azərbaycan torpaqlarını icarəyə götürərsə, yəqin ki, əsasən meyvə-tərəvəz yetişdiriləcək. Türkiyənin bu sahədə də təcrübəsi böyükdür:**

- Bu məsələlər dövlətlərarası müqavilələrlə tənzimlənir. Müqavilə şərtlərində bütün detallar qeyd edilir, ikitərəfli razılaşma əldə olunur. Neçə illiyinə torpaqlar icarəyə veriləcək, hansı şərtlər altında, becərilən məhsul daxili bazara da çıxacaqmı, icarə haqqı nə qədər olacaq və sair bu kimi məsələlər, əlbəttə, müqavilə şərtləri ilə tənzimlənəcək. Böyük ehtimalla icarəyə götürüləcək torpaqlar işğaldan azad edilmiş ərazilərin əhatə dairəsində olacaq. Bu, Azərbaycan dövlətinə də sərf edir. Çünki hökumət torpaqların canlanması, əkinəyararlı hala gətirilməsi üçün vəsait, güc sərf etməlidir. Bizimsə işğaldan azad edilmiş ərazilərdə görəcək çox işlərimiz var. Qardaş ölkənin bu torpaqların dirçəldilməsinə yardım etməsi Azərbaycana böyük kömək olacaq. Məlumdur ki, hazırda ölkədə xeyli torpaq sahələri var ki, istifadə olunmur, dövriyyədən kənar qalıb. İstifadəsiz torpaqların kənd təsərrüfatı təyinatına qaytarılması bu sahənin inkişafına təkan verəcək. İcarə haqqı öz yerində, dövlət büdcəsinə vergi ödəmələrinin miqdarı da artacaq. Digər tərəfdən dirçələn Qarabağda yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi də mümkün olacaq. Yəni hansı tərəfdən baxsaq, torpaq sahələrinin icarəyə verilməsi müsbət haldır, xeyirlidir. Biz torpaqların icarəyə verilməsinə iqtisadiyyata qoyulan investisiya kimi baxmalıyıq.



# Narahatçılığa əsas yoxdur

## Yoluxma sayı artsa da xəstəlik yüngülgedişli, müalicə müddəti isə qısa olacaq

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 49 yoluxma faktı qeydə alınıb, 25 nəfər müalicə olunaraq sağalıb.**

Xüsusi karantin rejimi ilə bağlı yumşalmalardan, əsas da maskaların ləğvindən sonra yoluxma sayında sıçrayışlı artım müşahidə edilməsə də müəyyən artımların olduğu görünür. Bu da istər-istəməz insanlarda müəyyən narahatlıqlara səbəb olub. Həkimlər isə artıq koronavirusun bizim üçün ciddi təhlükə olmadığını iddia edir.

**Tibb üzrə fəlsəfə doktoru, həkim-İnfeksionist Vüqar Cavadzadə ”Şərq”ə açıqlamasında növbəti dəfə koronavirusun yoluxma arealının genişlənəcəyi və epidemioloji gərginliyin yenidən artacağı ilə bağlı narahatlıqlara ciddi səbəb olmadığını deyib.** Onun sözlərinə görə, yaxın aylarda koronavirusa yoluxma hallarının kəskin artması, üçrəqəmli həddə qədər yüksəlməsi ehtimalı gözlənilən deyil: ”Hələ ki artıb-azalmalar ikirəqəmli həddə davam edir. Düzü, mövcud situasiyada yoluxma sayının hansı həddə qədər yüksəlməsi ilə bağlı düzgün proqnoz vermək mümkün deyil. Amma mövcud durum belədir ki, tək-tək olsa da Azərbaycanda COVİD-19 infeksiyası daşıyıcılarına rast gəlinir. Növbəti aylarda epidemioloji vəziyyətin necə olacağını isə zaman göstərəcək”.

İnfeksionistin sözlərinə görə, yoluxma sayı üçrəqəmli həddə qədər yüksəlsə belə xəstəlik yüngülgedişli, müalicə müddəti isə qısa olacaq. Əvvəlki kimi hansısa ciddi ağırlaşmaların, ölüm hallarının artması, xəstəxanaların xəstə ilə dolub-daşması kimi hallar təkrarlanmayacaq. İnsanların böyük əksəriyyəti koronavirus infeksiyasına qarşı vaksinasiya olunub, müəyyən kateqoriyalar 3-cü doza peyvənd olunub. Təxminən 1 milyondan artıq Azərbaycan vətəndaşı COVİD-19-a yoluxaraq təbii immunitet qazanıb.

**Şəymən**

# Xəzər bağları gücləndirir

## Qarşılıqlı maraq və mənafelərin nəzərə alınması vacibdir



Bundan sonra Xəzəryanı ölkələrin əməkdaşlığı daha da möhkəmlənəcək

**Xəzəri sülh və firavanlıq regionuna çevirmək üçün ölkələrin birgə əzmi daha da möhkəmlənir. İyunun 29-da Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısı keçirilib. Görüşdə Xəzəryanı ölkələrin dövlət başçıları iştirak edib. Xəzərin statusu və Xəzər hövzəsində əməkdaşlıq Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistanın diqqət yetirdiyi mühüm məsələlərdən biridir.**

Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Prezident İlham Əliyev VI Zirvə Toplantısındakı çıxışında bildirib ki, Xəzəryanı dövlətlər arasında bağlanmış müqavilələr Xəzər dənizi regionunun iri beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün yaxşı təməl yaradır: ”Bizim qarşılıqlı fəaliyyətimizin əsasını bütün tərəflərin mənafelərinin nəzərə alınması, Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq təşkil edir. Xəzər dənizi bizim regionun xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir”.

**Xəzəryanı dövlətlərin liderlərinin görüşünü ”Şərq”ə dəyərləndirən iqtisadçı Pərviz Heydərov bildirib ki, qarşılıqlı maraq və mənafelərinin nəzərə alınması əsasında Xəzər üzrə əməkdaşlıq mühüm əhəmiyyət daşıyır:** ”Biri var, Xəzəryanı ölkələr qarşılıqlı şəkildə mənafelərinə zidd addım atsınlar, biri də var ki, bütün məsələlərdə ortaq məxrəcə gəlməyi bacarsınlar. Çəkici eyni nöqtəyə vursunlar. Xəzər dənizi həm Asiya və Avropa, cənubla şimal arasında əlaqə deməkdir. Xəzər kifayət qədər təbii resurslarla zəngin su hövzəsidir. 2018-ci ildə Aktauda Xəzəryanı dövlətlərin başçıları Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzaladılar. Doğrudan da, elə bir sənədə ehtiyac duyulurdu.

Prezident İlham Əliyevin təbirincə desəm, ”çoxillik iş nəticəsində imzalanmış sözügedən sənəd Xəzərin hüquqi statusunu müəyyənləşdirib. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq”.

Azərbaycanla Türkmənistan arasında Xəzərin təbii resursları ilə bağlı müəyyən anlaşılmazlıqlar var idi. Söhbət postmüharibə dövründən gedir.

Xəzərin hüquqi statusu əldə olunduqdan sonra ölkələrarası razılaşmalara uyğun problemlər aradan qalxdı”.

**İqtisadçının qənaətincə, Xəzərə dair əsas cəhdlərdən biri onun beynəlxalq nəqliyyat qovşağı rolunda çıxış etməsidir:** ”Azərbaycan nəqliyyat qovşağına çevrilib. Şimal-Cənub, Asiya-Avropa arasında dəhliz rolunu oynayır. Bu mənada Xəzəryanı ölkələr üçün Azərbaycanın ortaya qoyduğu infrastruktur həqiqətən də Xəzər dənizinin nəqliyyat qovşağı kimi dünya iqtisadiyyatında mühüm rol oynaması üçün şanslar açır.

Xəzəryanı ətraf ölkələr də Azərbaycanın infrastruktura malik olduğunu bilir və bundan yararlanmaq istəyindədilər. Gələcək perspektivdə Xəzər dənizi ilə bağlı ölkələr arasında əməkdaşlığın daha geniş sferanı əhatə etməsi üçün çoxlu səbəblər mövcuddur. Bunlardan addım-addım yararlanmaq lazımdır.

Gələcəkdə Transxəzər boru kəmərinin çəkilməsi məsələsi asan başa gələcək. ”Cənub Qaz Dəhlizi”nə dair gördüyümüz işlərlə müqayisə Transxəzər boru kəmərinin çəkilməsi adi məsələdir. Avropanın enerji resurslarına artan tələbatının ödənilməsində kömək göstərəcək.

Xəzər hövzəsində əməkdaşlıq üçün sözügedən ölkələr arasında hələ çox görüləsi işlər var. Həyata keçirilməsi vacib məsələlər mövcuddur”.

**Aygün Tahir**

# Böyük Britaniya Azərbaycana 500 min funt-sterlinq ayırıb

## Həsrət Rüstəmov: “Minatəmizləmə əməliyyatları beynəlxalq hüquqi prosedurdur”



**Böyük Britaniya minatəmizləmə əməliyyatlarına 500 min funt-sterlinq ayırıb. Bu barədə Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp ”Twitter” hesabında qeyd edib. O bildirib ki, biz birlikdə regionda sülh üçün çalışmağa davam edirik:**

”Böyük Britaniya XİN regionda minatəmizləmə fəaliyyəti üçün əlavə 500 000 funt-sterlinq ayrıldığını elan edib. İnanıram ki, bu vəsait Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) mülki əhali arasında riskləri azaltmağa və insanlara öz həyatlarını yenidən qurmağa imkan verəcək”.

**Britaniyanın ölkəmizə göstərdiyi diqqəti ”Şərq”ə şərh edən politoloq Həsrət Rüstəmov bildirib ki, elə bir dövlətin Azərbaycanı dəstəkləməsi regionda olduqca mühüm bir hadisədir:** ”Həmçinin müharibə dövründə də ölkəmizə həm siyasi sferada, həm informasiya savaşında göstərdiyi səylər göz önündə idi. Hökumət də bu istiqamətdə müəyyən işlər görür. Eyni zamanda diplomatik, qarşılıqlı sahələrdə görülən tədbirlər nəticəsini verməkdədir.

Bir müxalifət partiyası olaraq, Azərbaycanın neft üzrə əməkdaşlıq etdiyi bir ölkə kimi, rəsmi Londonun ərazi bütövlüyünün bərpası, iqtisadi sahədəki inkişafa təkan verməsini yüksək qiymətləndiririk. O cümlədən, Britaniyanın dövlətimizi beynəlxalq aləmdə informasiya baxımından dəstəkləməsi məsələləri bəyənilləndir.

Təbii ki, minatəmizləmə əməliyyatları da beynəlxalq hüquqi prosedurdur. Bu istiqamətdə də bir dövlət kimi Böyük Britaniyanın iştirakı təqdirəlayiqdir”.

**Sücayət Mehti**

# Sabirabadda əməliyyat

## Rüşvətə görə iki vəzifəli şəxs həbs edildi



**Sabirabad Rayon İcra Hakimiyyəti başçısı Aparatının Memarlıq və Tikinti şöbəsinin müdiri Qasımov Müşviq Vidadi oğlunun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.**

Baş Prokurorluqdan ”Şərq”ə bildirilib ki, aparılmış əməliyyat-istintaq tədbirləri ilə Müşviq Qasımovun FHN-nin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Dövlət Əhəmiyyətli Obyektlər üzrə Dövlət Tikinti Müfəttişliyinin baş məsləhətçisi Quliyev Eldar Musa oğlu və digər şəxslərlə qabaqcadan əlbir olaraq Sabirabad rayonu ərazisində yerləşən qeyri-yaşayış obyektində tikinti işlərinin aparılmasına icazə verilməsi, bunun üçün zəruri olan memar rəyi və digər aktların verilməsinə köməklik göstərilməsi üçün onlara müraciət etmiş vətəndaşdan külli miqdarda rüşvət almalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Toplanmış kifayət qədər sübutlar əsasında Müşviq Qasımov və Eldar Quliyevə Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.3 (rüşvət alma- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda törədildikdə) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində istintaq davam edir.



## Tural Abbaslı magistr oldu

**AĞ Partiya sədri Tural Abbaslı Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin magistratura pilləsini başa vurub.**

”Şərq” məlumat verir ki, T.Abbaslı bu gün magistr müdafiəsini edərək BDU-nun Jurnalistika fakültəsinin məzunu olub.

*Qeyd edək ki, T.Abbaslının verdiyi açıqlamaya əsasən, o, siyasi konyuktura görə, əsassız şəkildə magistratura pilləsindən bir müddət kənarlaşdırılmışdı.*

**Aygün Tahir**



# İstintaq orqanları sükutu pozmalıdır

## Cəmiyyət insanları intihara aparan əsas səbəbləri bilməlidir

**İntihar hadisələri niyə araşdırılmır? İstintaq orqanları bu sual qarşılığında "hər bir hadisə araşdırılır, lazımi istintaq hərəkətləri aparılır" deyəcək və əslinə qalsa, biz də bunu inkar etmirik. İstintaq orqanlarının intihar hadisələrindən asanlıqla vaz keçməsi mümkün görünmür. Amma məsələ başqadır.**

Biz "araşdırılmır" dedikdə, intiharın səbəbi barədə ictimaiyyətin məlumatsız qalmasını nəzərdə tuturuq. İntihar nəticəsində həyatını itirmiş şəxsin niyə, hansı səbəbdən buna əl atdığı bilinmirsə, deməli, cəmiyyət məlumatsızdır və bu halda hadisənin araşdırılıb araşdırılmadığı da müəmmalı qalır. Qəbul edirik, vəfat etmiş şəxsin ailəsi, doğmaları intiharın hansı səbəbdən baş verdiyinin cəmiyyətə açıqlanmamasını istəyə bilər, hətta ailə üzvləri intiharın əsl səbəbini gizlədə də bilər. Amma təcrübəli istintaqçılar, necə deyərlər, tükü-tükdən seçməyi bacarır. Bir halda ki, istintaq həqiqəti üzə çıxarır, şəxsin kimliyi gizli saxlanılmaqla hadisənin səbəbləri geniş ictimaiyyətə açıqlana bilər. Bu halda intiharlar barədə müxtəlif şayiələr, ağlasığmaz versiyalar da ortadan qalxar. Bunun cəmiyyətə zərəri olmaz hər halda, əksinə, xeyri dəyər.





**Mehriban Zeynalova:** "Konkret həkim-ginekoloqun intiharı ilə bağlı görün nə qədər mülahizələr ortaya çıxdı. Həkim qadının həyat yoldaşı ittiham olundu, reputasiyası zərbə aldı. Amma intiharın əsl səbəbi bilinsə, ictimaiyyət də yanlış informasiyalardan xilas olar, müzakirələr "niyə?" sualı ətrafında yox, "nə etməli?" sualı ətrafında aparılar"

**Elnur Rüstəmov:** "Dəyirmi masa"lar təşkil edilməli, səbəblər açıqlanmalı və bunun qarşısının alınması yolları barədə danışılmalı və əldə edilən nəticə üzərindən hərəkətə keçilməlidir"

**Müraciət etdiyimiz ekspertlər də bu fikri təsdiqlədi ki, intiharların səbəbləri açıqlanmalı, statistik rəqəmlərlə yanaşı intiharların kateqoriyalar üzrə təsnifatı aparılmalıdır. "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında bu təklif üzərində dayandı:**

- İntiharın səbəbinin bilinməsi, həmin səbəblərin aradan qaldırılması üçün böyük əhəmiyyət daşıyır. Cəmiyyətdə belə bir yanlış fikir formalaşıb ki, intihar varsa, burada ya zorakılıq faktı mövcuddur, ya şantaj var, ya da nakam eşq hekayəsinin sonudur. Artıq cəmiyyət imtahandan az bal topladığına görə hansısa yeniyetmənin intihar edə biləcəyinə də inamsız, şübhə ilə yanaşır. "Mütləq" şəkildə yeniyetmənin, bir gəncin intiharını sevgi macərası, valideyn nəzarətsizliyi, hətta şıltaqlıqla bağlayır. Yəni uşaq, gənc valideynə, yaxud dostuna, dostlarına "dərs olsun" deyə intihara əl atdı. Halbuki, intiharın köklü, əsaslı səbəbləri olur. Kimsə anidən belə bir qərar vermir. İntihara aparan yol faktiki baxımdan çox qısadırsa, fəlsəfi baxımdan çox uzundur. Bir şəxsin intihar qərarı verməsinə uzun müddət məruz qaldığı təzyiq və təpkilər, içində yaşadığı ortam səbəb ola bilər. Ona görə də intihar hadisələri ilk növbədə mütləq ciddi araşdırılmalı, ikincisi isə bu barədə ictimaiyyətə mütləq məlumat verilməlidir. İntiharların statistikası aparılırsa, kateqoriyalar üzrə təsnifatı da aparılmalıdır. İntihara nə səbəb olub; narkotik maddə aludəçiliyimi, zorakılıq, istismarın müxtəlif formaları, ruhi düşkünlük, depressiya, sosial problemlər, şantaj... Nə qədər səbəblər var. Cəmiyyət intihara aparan əsas səbəbləri bilməlidir.

**M.Zeynalova bildirdi ki, vətəndaş cəmiyyəti institutu təmsilçisi olaraq bu məsələni bir neçə dəfə qaldırıblar:**

- Biz bu haqda danışırıq, təkliflər səsləndiririk. 10 il əvvəl Zaqatalada baş vermiş intihar hadisəsi cəmiyyətdə çox müzakirə olunmuşdu. Müxtəlif versiyalar səslənmişdi, amma sonra bziim aldığımız məlumat bütün versiyaları alt-üst etdi. Aydın oldu ki, məsələ heç də danışıldığı kimi deyil. Hesab edirəm ki, kriminalistlər, hüquqşünaslar, prokurorluq orqanları intiharların səbəbləri barədə ictimaiyyəti məlumatlandırmalıdır. Bu həm də ona görə lazımdır ki, intiharları şərtləndirən səbəblər bilinsin. Valideynlər də ehtiyatlı olsun. Övladları ilə necə davranmalı olduqlarını bilsinlər. Uşaq, yeniyetmə, gənc intiharı baş verdikdə, ailə, valideyn ittiham olunur, təpki ilə üzləşir. Bir tərəfdə uşaq itkisi, bir tərəfdə ailəyə təpkilər. Cəmiyyət ikitərəfli zərbə alır. Bunlar nəzərə alınaraq mütləq maarifləndirmə işi aparılmalıdır. Konkret həkim-ginekoloqun intiharı ilə bağlı görün nə qədər mülahizələr ortaya çıxdı. Həkim qadının həyat yoldaşı ittiham olundu, reputasiyası zərbə aldı. Amma intiharın əsl səbəbi bilinsə, ictimaiyyət də yanlış informasiyalardan xilas olar, müzakirələr "niyə?" sualı ətrafında yox, "nə etməli?" sualı ətrafında aparılar. Hesab edirəm ki, dəqiq strategiya işlənməlidir. QHT-lər bölgələrə ezam edilməli, ailələrlə işləməlidirlər. Bu prosesdə prokurorluq orqanları qht-lərlə əməkdaşlıq etməlidir. Mən düşünürəm ki, intiharlarla bağlı konkret layihələr icra olunmalıdır. Səbəblər, intihara sürükləyən problemlərin nədən ibarət olduğu bilinməlidir. Əhalinin psixoloji durumu öyrənilməlidir. Strategiya ilə yanaşı konsepsiya da işlənməlidir. Xüsusi institutlar bu işlə məşğul olmalıdır. Bunları bilmədən hadisələrin qarşısını almaq, intihar statistikasını azaltmaq mümkün olmayacaq. Birgə işləməliyik ki, problem həllini tapsın. Biz bu yolu tutmalıyıq. Çünki intihar virus kimidir. Qarşısı alınmırsa, yayılır, artır.

**Psixoloq Elnur Rüstəmov da "Şərq"ə açıqlamasında intihar hadisələrinin səbəblərinin cəmiyyətdən gizlədilməsinin doğru olmadığını dedi:**

- Hamımız bilirik ki, bütün cinayət hadisələrində olduğu kimi intihar hadisələri zamanı da istintaq orqanları təhqiqat aparır, həqiqətləri üzə çıxarmağa çalışırlar. Lakin bu barədə ictimaiyyətə məlumat verilmir. Təbiidir, ola bilər intihar etmiş şəxsin ailəsi, yaxınları məlumatların yayılmasını istəməsin və buna razılıq verməsin. Bəzən intihar bədbəxt hadisə kimi, bədbəxt hadisə isə intihar kimi qələmə verilir. Lakin bu məsələdə konkret ad çəkmədən, konkret hadisə barədə geniş açıqlama verilmədən səbəblər göstərilə bilər. Və göstərilməlidir. "Dəyirmi masa"lar təşkil edilməli, səbəblər açıqlanmalı və bunun qarşısının alınması yolları barədə danışılmalı və əldə edilən nəticə üzərindən hərəkətə keçilməlidir. Cəmiyyətdə belə bir qənaət formalaşıb ki, intiharlara iqtisadi problemlər, sosial-maddi sıxıntılar daha çox səbəb olur. Amma biz sonuncu intihar hadisəsində tamamilə fərqli bir mənzərə gördük. İşi, ali bir peşəsi olan, fotolarda həyatından, işindən məmnun görünən, "Qələbə" işarəsiylə gülümsəyərək kamera önündə dayanmış gənc, perspektivli bir xanım intihar etdi. Bundan əvvəl də işi, peşəsi, cəmiyyətdə müəyyən statusu olan şəxslərin intihar xəbərlərini almışıq. Onlar hansı səbəbdən intihara əl atıb? Bax, bu səbəb tapılmalıdır. İstintaq orqanları bunu bilirsə, müəyyənləşdiribsə, açıqlamalıdır. Biz artıq bu reallıqla razılaşmalıyıq ki, intihar insan faktorudur. Burada varlı, kasıb, təminatlı, təminatsız bölgüsü qəbuledilməzdir. Bu cür bölgü aparmaqla biz yanlış istiqamətə gedirik. İntihar insanın sabahı görməməsindən qaynaqlanır. İnsanın sabaha ümidi yoxdursa, ümidləri qırılıbsa, o artıq həyatla vidalaşmaq istəyir. Və ilk fürsətdə bunu reallaşdırır. Bunun üçün bir qığılcım, kiçik bir konflikt yetərlidir. İntiharların ümumi statistikası açıqlanır, səbəblər isə göstərilmir. Ümumi icmal fonunda səbəblər də göstərilməlidir ki, hansı istiqamətdə iş aparılmalı olduğu dəqiqləşsin. Uşaqlarla xüsusi iş aparılmalıdır, yeniyetmə, gənclərlə başqa formada, yetişkin insanlarla tamam fərqli. "Bu barədə danışmayın, yazmayın" deməklə, problem həll edilməyəcək. Danışmalıyıq ki, səbəblər bilinsin, motiv bəlli olsun.

**Məlahət Rzayeva**

# "Türkiyə əski Türkiyə deyil"

## Natiq Miri: "ABŞ Türkiyəyə qarşı mövqeyini dəyişməlidir"





**Ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Madriddə NATO sammiti çərçivəsində amerikalı həmkarı Cozef Baydenlə görüşüb. Türkiyə Prezidenti R.T Ərdoğan bildirib ki, NATO-nun güclənməsinə yönəlmiş addımlar Rusiya və Ukrayna arasında münaqişənin həllinə xüsusi töhfə verəcək.**

Cozef Bayden, öz növbəsində, Türkiyə Prezidentinə Ukrayna taxılının ixracını təmin etmək səylərinə, habelə İsveç və Finlandiyanın NATO-ya üzvlük müraciətlərini dəstəklədiyinə görə təşəkkür edib.

**İki liderin görüşünü "Şərq"ə şərh edən politoloq Natiq Miri bildirib ki, bu liderlərin müəyyən məsələləri müzakirə etməsi və müsbət impulsların verilməsi iki dövlət arasında olan problemlərin çözülməsi anlamına gəlməz:** "Burada üç dönəmdir ki, çox fundamental problemlər var və hələ də öz həllini tapmayıb. ABŞ-ın Türkiyəyə olan münasibəti və yanaşma tərzi Türkiyə üçün qəbul oluncaq bir durum deyil. Ona görə ki, ABŞ əvvəllər olduğu kimi Türkiyəni yenə də özünün əmrində müntəzir bir əsgər kimi görmək istəyir. Əvvəllər qərar qəbul edilirdi, Türkiyə də bunu icra etmək məcburiyyətində qalırdı. Lakin bu gün Türkiyə əvvəlki vəziyyətdə deyil. O, özünə yetəcək qədər güclənmiş bir ölkədir. Bundan başqa Türkiyə artıq hərbi cəhətdən heç bir ölkədən asılı vəziyyətdə deyil. Günümüzdə Türkiyənin müdafiə sanayesi özünün 80 faiz təchizatını təmin edir. Bu da onun digər ölkələrdən asılılığını minimuma endirir".

Politoloqun sözlərinə görə, Ankaranın sərhəddən kənarda reallaşdırdığı bütün hərbi əməliyyatlar bilavasitə yerli istehsal vasitəsi ilə həyata keçirilir: "İstər helikopterlər, istər PUA-lar, istər artilleriya-raket sistemləri, eyni zamanda havadan-havaya və yaxud havadan yerə atılacaq raketlər də hərbi yerli istehsaldır. Bu səbəbdən rəsmi Ankara çox rahatlıqla istənilən hərbi əməliyyatı başladıb, başa çatdıra bilir. Lakin öncələr dərhal Türkiyəyə verilən silahlara qadağa qoyulurdu. Türkiyə də bu məhdudiyyətlər çərçivəsində uzun müddət hərbi əməliyyatlar apara bilmirdi. Bu baxımdan düşünürəm ki, Türkiyə ilə ABŞ-ın münasibətlər sistemi fundamental olaraq dəyişmədən ABŞ-Türkiyə yaxınlaşmasını iddia etmək doğru deyil. Təməl problemlər həll olunmadıqca, digər problemlərin həllində zaman-zaman müəyyən çətinlik yaranır.

**Natiq Miri hesab edir ki, ABŞ Türkiyəyə qarşı mövqeyini dəyişməlidir:** "Hesab edirəm ki, ilk növbədə ABŞ rəhbərliyində olan qafalar birmənalı olaraq anlamalıdırlar ki, Türkiyə artıq əski Türkiyə deyil. O artıq qlobal səviyyədə yeni oyun quran ölkəyə çevrilib. Qlobal səviyyədə Türkiyəsiz heç bir problemi həll etmək mümkün deyil. Bunu rəsmi Vaşinqton anlamadıqca, Türkiyə-ABŞ problemlərini təməldən həll etmək alınmayacaq. Qısa müddətli müəyyən geosiyasi maraqlar kontekstində mövqelər yaxınlaşa bilər. Ancaq təməl olaraq iki ölkə arasında problemlər heç cürə müttəfiq səviyyəsində çözülə bilmir".

**Çimnaz Şahlar**

# "Ərzaq qıtlığı problemi getdikcə dərinləşəcək"

## İlqar Vəlizadə: "Bu problemin aradan qaldırılması üçün Xəzəryanı ölkələr səylər göstərməlidir"



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Xəzər qida mərkəzi yaratmağı təklif edib. O, bu barədə Aşqabadda keçirilən Xəzər sammitində çıxışı zamanı bildirib.**

K.J.Tokayev qeyd edib ki, Qazaxıstanın ət və süd məhsullarının ixracını artırmaq potensialı var: "Dövlətlərimiz arasında ticarət əlaqələrini gücləndirmək üçün müasir logistika infrastrukturunu ardıcıl şəkildə inkişaf etdirmək lazımdır. Ona görə də biz minimal xərclə qarşılıqlı ticarəti artıracaq Xəzər ərzaq mərkəzini yaratmağı təklif edirik".

**Qazaxıstanın təklifi ilə bağlı "Şərq"ə danışan politoloq İlqar Vəlizadə bildirib ki, təşəbbüs çox vacib və əhəmiyyətlidir:** "Bu iqdam regionda və dünyada baş verən reallıqları nəzərə alır. Doğrudan da Yer kürəsində mürəkkəb proseslər baş verir. Eyni zamanda ərzaq qıtlığı problemi getdikcə dərinləşib. Əlbəttə, bu problemin aradan qaldırılması üçün Xəzəryanı ölkələr səylər göstərməlidir. Həmçinin təklifin reallaşması digər ölkələrin, ətraf regionun ərzaq təhlükəsizliyi məsələlərinin həllinə ciddi töhfə verə bilər".

**İ.Vəlizadə Azərbaycanın da eyni məqsədlərə xidmət etdiyini vurğulayıb:** "Ölkəmiz də ərzaq təhlükəsizliyini daim diqqətdə saxlayır. Ona görə də ikitərəfli əməkdaşlıq xüsusi önəm kəsb edir. Digər tərəfdən son vaxtlar dövlətimizlə Qazaxıstan münasibətlərinin inkişaf etdirildiyini qeyd etməliyik. Hər iki ölkə əlaqələri gücləndirir. Bu da perspektivdə yeni inkişaf mərhələsinə qədəm qoyacağımızdan xəbər verir".

**Sücayət Mehti**

# "Paşinyan çalışır ki, türk agenti damğasından qurtulsun"

## Həşim Səhrablı: "Buna görə də diqqətləri Azərbaycana yönəldərək özlərini zərərçəkən kimi göstərməyə çalışırlar"

**Ermənistanın Baş naziri Nikol Paşinyan 27 iyun 2022-ci il tarixində onlayn mətbuat konfransında Azərbaycanı blokada siyasəti yürütməkdə ittiham edib və bir sıra xöşəlgəlməz iddialar irəli sürüb. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən N.Paşinyana cavab gecikməyib.**

Bildirilib ki, 30 ilə yaxın Azərbaycan ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayaraq bu əraziləri darmadağın edən bir ölkənin rəhbərinin, Azərbaycanı bu illər ərzində blokada siyasətini yürütməkdə ittiham etməsi heç bir hüquqi və əxlaqi çərçivəyə sığmır: "Baş nazir Paşinyana xatırladırıq: Azərbaycan, Ermənistanın işğalçı siyasətinə rəğmən və ərazilərində onilliklər ərzində Ermənistan tərəfindən tətbiq edilmiş "hər şeyi məhv etmək" yanaşmasına baxmayaraq, ərazilərini azad etdikdən sonra iki dövlət arasında münasibətlərin normallaşması tərəfdarı və təşəbbüskarı olub. Məhz Azərbaycan dövlət başçısı, post-münaqişə mərhələsində beynəlxalq hüququn prinsiplərinə ciddi riayət edilməsi əsasında sülh sazişinin imzalanması təklifi ilə çıxış edib. Hətta Azərbaycan tərəfi Sazişin əsaslanmalı olduğu baza prinsiplərini də qarşı tərəfə təqdim edib. Paşinyanın iddia etdiyi kimi, Azərbaycan müharibə istəsəydi, yəqin ki, bu addımlara ehtiyac qalmazdı. Əgər Azərbaycan müharibə istəsəydi, Ermənistanın 30 il ərzində yerlə-yeksan etdiyi ərazilərin yenidən qurulması və bərpası üçün böyük səylər sərf edib, nəhəng işlər görməzdi.

Azərbaycan tərəfi, iki ölkə arasında sərhədlərin delimitasiyası, bölgədə bütün kommunikasiyaların açılması və tərəflər arasında gələcək sülh sazişinin imzalanması istiqamətlərində yalnız sözdə açıqlamalar vermir, öz əməlləri və konkret addımları ilə söylədiklərini həyata keçirir. Uzun illər ərzində məhz Azərbaycan tərəfi, bölgədə normal münasibətlərin qurulmasının və bütün kommunikasiyaların açılmasının Ermənistana faydalı olacağını söyləyib. Ermənistan tərəfinin bunu nəhayət anlaması və baş nazirin "kommunikasiyaların açılması Ermənistana sərf edir" söyləməsi, Ermənistan rəhbərliyinin yeni yanaşması kimi diqqəti cəlb edir. Görünür, həqiqətlərin Ermənistan tərəfindən qəbul edilməsi bir qədər vaxt tələb edir. Ümid edirik ki, artıq reallığa çevrilən Zəngəzur dəhlizinin fəaliyyətinin səmərəliliyinin Ermənistan tərəfindən dərk edilməsi üçün böyük zamana ehtiyac qalmayacaq.



Üçtərəfli bəyanatlara gəldikdə, bu sənədlə tərəflərin üzərinə götürdüyü öhdəliklər və onların icrası göz qabağındadır. Sənədin iddialarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərinə diversant qüvvələr göndərən, Azərbaycan ərazilərindən qanunsuz silahlı birləşmələrini çıxarmayan, kommunikasiyaların açılmasını uzun müddət ərzində ləngidən Ermənistan bu bəyanatların icrasını kobud şəkildə pozur.

Ermənistan baş naziri, konkret hansı hala istinad etdiyinə aydınlıq gətirmədən "Azərbaycan tərəfinin ən azı bir halda görüşün keçirilməsini boykot etdiyini" söyləyir. Əgər postmünaqişə mərhələsində indiyədək beynəlxalq vasitəçilərin iştirakı ilə də təklif edilən və Ermənistan tərəfindən müxtəlif bəhanələrlə pozulan, habelə keçirilməsinə 1-2 saat qalmış təxribatlarla təxirə salınan görüşləri sadalamağa başlasaq, siyahı çox uzun olar.

Ermənistan həqiqətən sülh istəyirsə, səmərəlilik əmsalı hər zaman aşağı olan və hazırda üzvləri tərəfindən açıq şəkildə fəaliyyətinin qeyri-mümkünlüyü etiraf edilən bir formatı dirçəltməyə zaman sərf etməkdənsə öz siyasi iradəsini ortaya qoyub sülh istiqamətində konkret addımlar atmalıdır".

**N.Paşinyanın bəyanatının müxtəlif addımlara hesablandığı deyən hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə bildirib ki, buradakı məqsədlərdən biri Paşinyanın reytinqini daxili siyasətdə qaldırmaqdır:** "Bir neçə ay əvvəl Azərbaycan və Ermənistan arasında ikili münasibətlər kontekstində sülh müqaviləsinin imzalanması məsələsi var idi. Bu, hazırkı geosiyasi vəziyyətdə mümkün deyil. Çünki xarici qüvvələrin təsiri ilə problemlər yaranır. N.Paşinyan daxili arenada böyük nüfuz itkisi yaşamışdı. Bilirik ki, Ermənistan cəmiyyətində səbəbsiz türk düşmənliyi var. N.Paşinyan türk agenti olmaqda ittiham edilirdi. Ona görə də Ermənistanın baş naziri belə addımlar atır ki, edilən ittihamlardan və türk agenti damğasından qurtulsun. Digər tərəfdən bu açıqlamaların ikinci məqsədi Azərbaycanın istəklərinə boyun əyməyərəkdən münasibətləri normallaşdırmaq cəhdləridir. Onlar yaxşı hesablamış olmalıdırlar kı, Ermənistan artıq beynəlxalq hüquqa tabe olacaq şəkildə qərarları dəstəkləsə və Azərbaycanla bu kontekstdə müqavilə imzalasa, gərək geosiyasətinin böyük hissəsindən imtina etsin. Bunun başında Qarabağ, Zəngəzur dəhlizi və s. gəlir. Ermənistan tərəfi az zərərlə çıxmağa çalışır. Buna görə də diqqətləri Azərbaycana yönəldərək özlərini zərərçəkən kimi göstərməyə çalışırlar. Bununla da beynəlxalq arenada dəstəklərini çoxaltmağa çalışırlar".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**



# Milli mütəxəssis problemi aktualdır

## Azərbaycanın kibercinayətkarlıqla mübarizədə İsraillə əməkdaşlığı müsbət nəticələr verəcək



**Rəqəmsal sahədə dəyişikliklər və yeniliklər gedərək artmaqdadır. Kiber məkanlar müxtəlif məqsədlər üçün istifadəyə yararlı hala gəlib. Bu mühitlərdəki informasiya və əməliyyat təhlükəsizliyi təhdidlərinə qarşı çıxmaq, risklərin qarşısını almaq və təhdidlərlə mübarizə aparmaq üçün "kiber təhlükəsizlik mütəxəssisi" kimi peşələrin əhəmiyyətini önə çıxarıb.**

Qeyd edək ki, kiber təhlükəsizlik mütəxəssisləri təhlükəsizlik zəifliyini nəzərə almaq, bu sahədəki boşluqlar barədə məlumat vermək, kiber hücumlarla mübarizə, şəbəkə və sistem təhlükəsizliyinin təmin edilməsi, casusluq əleyhinə proqramlarla mübarizə və digər təhlükələrin ola biləcəyi son nöqtələrdə müdaxilə kimi vəzifələri yerinə yetirirlər.

Bu sahədə işləmək istəyənlər kiber kəşfiyyat, əməliyyat sistemi təhlükəsizliyi, şəbəkə təhlükəsizliyi, mobil sistem təhlükəsizlik mütəxəssisi kimi çalışırlar. Kiber təhlükəsizlik mütəxəssis kimi işləyəcək insanlardan Milli və beynəlxalq standartlardan xəbərdar olmaq, tələb olunan sahələrdən sertifikatlar əldə etmək (Systems Security Certificated Practitioner /SSCP Sertifikatlı İnformasiya Sistemləri Auditoru / CISA, Sertifikatlı İnformasiya Sistemləri Təhlükəsizliyi Mütəxəssisi / CISSP), şəbəkə və sistem məlumatları bacarıqlarının olması gözlənilir. Bundan əlavə, bu sahədə çalışacaq mütəxəssisin yüksək səviyyədə ingilis dili bilməsi lazımdır. Kiber təhlükəsizlik mütəxəssisi olmaq istəyən insanlar davamlı inkişafa açıq olmalı, maraq və araşdırma istəyinə sahib olmalı, diqqəti yüksək səviyyədə olmalı və xakerlər kimi düşünə bilən olmalıdır.

Dövlətlər, təşkilatlar və şirkətlər kiber təhlükəsizlik sahəsinə investisiya qoymağa davam edir və bu sahədəki imkanlarını artırmaq üçün səy göstərirlər. Təkcə 2018-ci ildə təxminən 100 milyon kiber məlumat sızması baş vermişdi. Bunun fərqində olan təşkilatlar kiber məkandakı hücumlarla mübarizə etmək, təhlükələri görmək və təhdidlərə qarşı səy göstərirlər. Bu səbəbdən də kiber təhlükəsizlik mütəxəssislərinə ehtiyac artmaqda davam edir.

Son illər Azərbaycanda da kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması prosesi prioritet sahələrdən hesab olunur və aidiyyəti dövlət qurumları bu istiqamətdə real addımlar atırlar.

Bu baxımdan Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin tanınmış "Technion" Universiteti arasında imzalanan müqavilə təqdirəlayiqdir. Qeyd edək ki,

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyəti İsraildə səfərdədir. Nazirlikdən verilən məlumata görə, sözügedən müqavilə səfər çərçivəsində imzalanıb. Müqaviləyə əsasən fəaliyyətə başlayacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi növbəti 3 il ərzində 1000-dən çox peşəkar mütəxəssisin hazırlanmasını həyata keçirəcək.

Proqram çərçivəsində tədris Bakıda "Technion" Universitetinin professor-müəllim heyəti tərəfindən aparılacaq. Bu yaxınlarda proqrama qəbulun elan olunması nəzərdə tutulur.

Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin əsas üstünlüklərindən biri kibertəhlükəsizlik üzrə mütəxəssislərlə yanaşı, yerli təlimçilərin hazırlanmasıdır. Mərkəzdə təlimçilərin yetişdirilməsi sayəsində gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması geniş vüsət alacaq və bu istiqamətdə olan çatışmazlıqlar tamamilə aradan qaldırılacaq.

"Technion" Universitetinin qabaqcıl təhsil təcrübəsi və imkanlarının Azərbaycana gətirilməsi kibertəhlükəsizlik üzrə milli insan kapitalının formalaşmasına önəmli töhfə verəcək. Mərkəzdə tədris ingilis dilində həyata keçirilməklə 18 yaşdan yuxarı Azərbaycan vətəndaşları üçün əlçatan olacaq. Məzunlara "Technion" Universitetinin sertifikatı təqdim olunacaq.

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev yeni açılacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi ilə bağlı bildirib:** "Bu gün "Technion" Universiteti ilə birgə ölkəmiz üçün vacib sahələrdən biri olan kibertəhlükəsizlik üzrə əməkdaşlığın bünövrəsini qoyduq. Ali məktəbin metodikası əsasında təşkil olunmuş proqram üzrə təhsil alacaq tələbələr əmək bazarına rəqabətli mütəxəssislər kimi hazırlanacaq. Çox məmnunuq ki, dünyanın ən qabaqcıl təhsil müəssisələri və bilik mərkəzlərindən biri olan "Technion" Universiteti ilə tərəfdaşlıq quraraq kibertəhlükəsizlik sahəsi üzrə beynəlxalq bilik və təcrübəni ölkəyə gətiririk!".

"Technion" Universitetinin prezidenti, professor Uri Sivan sözügedən əməkdaşlığın qurulmasından çox məmnun olduğunu və gələcəkdə onun daha da genişləndirilməsinə ümid etdiyini bildirib: "Təsis etdiyimiz yeni Mərkəz Azərbaycanın informasiya təhlükəsizliyini dəstəkləyən vacib bir layihədir və hazırlanan mütəxəssislər nəinki Azərbaycanda, eləcə də regionda sahənin inkişafına töhfə verəcəklər".

**İKT eksperti Ələsgər Məmmədlinin "Şərq"ə açıqlamasına görə, kibercinayətkarlığa qarşı mübarizədə İsraillə əməkdaşlıq müsbət nəticələr verə bilər.** İsrail bu sahədə həm mütəxəssis, həm də texnologiya baxımdan kifayət qədər inkişaf etmiş ölkələrdən biridir. Bu baxımdan İsrail resurslarından faydalanmaqla Azərbaycanda da kibertəhlükəsizlik sahəsində müəyyən nailiyyətlər əldə etmək olar.

Ölkəmizdə kibertəhlükəsizlik sahəsində milli mütəxəssis problemi aktualdır. Bu sahədə mütəxəssis hazırlığı ilə məşğul olan ali təhsil ocaqlarında peşəkar kadrların yetişdirilməsi prosesi çox zəif gedir. Xaricdə təkmilləşən kadrları da əldə tutmaq məsələsi ciddi problemdir. Dövlət təhlükəsizliyi ciddi məsələ olduğu üçün prosesin başında milli kadrların aktiv rol alması daha məqsədəuyğundur. Amma bu sahədə yetişən peşəkar milli kadrlar çox azdır. Xaricdə oxuyub gələn az sayda mütəxəssisləri də əldə tutmaq üçün resurslar azdır. Yaradılacaq Kibertəhlükəsizlik Mərkəzi milli kibertəhlükəsizlik üzrə mütəxəssislərin yetişdirilməsində töhfə verəcəksə təqdirəlayiq hesab etmək olar. Əks halda bu Mərkəzlə bağlı yüksək gözləntim yoxdur".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ukrayna məhsullarının ixracının önü açılacaq

## Mişel və Ərdoğan bu məsələni müzakirə edib

**Şarl Mişel və Rəcəb Tayyib Ərdoğan taxıl məsələsini müzakirə ediblər.**

Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti ilə türkiyəli həmkarı arasındakı danışıqlar Madriddə NATO Sammiti çərçivəsində görüş zamanı baş tutub. Bu barədə Ş.Mişel özünün "Twitter" hesabında qeyd edib. Onun sözlərinə görə, tərəflər Türkiyənin BMT-nin və Baş katib Antonio Quterreşin Ukraynadan taxıl ixracına qarşı blokadanın aradan qaldırılması səylərinə göstərdiyi dəstəyi müzakirə ediblər. Aİ Şurasının rəhbəri Rusiyanın hərbi təcavüzü və suveren dövlətə qarşı işğalının qəbuledilməz olduğunu bildirib.

**Taxıl ixracına qarşı embarqonun dayandırılması barədə "Şərq"ə danışan iqtisadçı Natiq Cəfərli bildirib ki, Avropa Birliyi, BMT və Türkiyənin iştirakı ilə dəniz yolları blokadasının açılması, Ukraynanın ərzaq məhsullarının ixracatı ətrafında artıq bir neçə həftədir müzakirələr aparılır:** "İnfrastruktur, coğrafi şərait baxımından Türkiyənin məsələlərin həllini reallaşdırmağa böyük imkanları və şansı var. Həmçinin Rusiya ilə də təmaslarının olduğunu nəzərə alsaq, yəqin ki, təşəbbüs yaxın gələcəkdə nəticə verə bilər. Beləliklə, Ukraynanın ərzaq məhsullarının xaricə ixracatının önü açılar. Həm də qısa zamanda bununla bağlı konkret rəqəmlər, yaxud işlərin ortaya çıxması ehtimalı mövcuddur. Amma son məlumatlara görə, Türkiyə Ukraynanın Qara dəniz limanlarından 2 gəmisini çıxara bilib. Rusiya ilə danışıqlardan sonra nail olub. Deməli, Türkiyənin belə bir kanalı var".

**Sücayət Mehti**

# Azərbaycanda nikahlar artıb, boşanmalar azalıb



**Bu ilin altı ayında bağlanmış nikahların sayı 20 faizdən çox artaraq 28 minə çatıb.**

APA xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyində keçirilən kollegiya iclasında bildirilib.

*Qeyd olunub ki, boşanmanın sayı isə 11 faiz azalıb. Eyni zamanda qeydə alınmış doğumun sayı artaraq 60 minə yaxın olub. Ölüm isə 15 faizədək enib.*

# Hədəfə doğru

**Müasir dünyamız qloballaşma fonunda bir çox paralellərin vəhdətini, birliyini özündə təcəssüm etdirir. Cəmiyyətimizdə gedən proseslərin əksəriyyəti nüfuz dairəsindən, fəaliyyət prinsiplərindən asılı olmayaraq xalqın maraqlarını əks etdirən müxtəlif dövlət və ya qeyri-dövlət qurumların əməkdaşlığını dövrün tələbləri kimi qarşıya qoyur.**

II Qarabağ müharibəsi və Şanlı Qələbəmizdən sonrakı mərhələdə baş verən hadisələr birbaşa dövlət başçısı - möhtərəm prezidentimiz cənab İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı qanunauyğun təzahürüdür. Bu "yumruq" mənfur düşmənlərimizə zərbə vurmaq anlamından daha çox birliyimizin, sabitliyimizin, monolitliyimizin rəmzi timsalıdır. Belə ümummilli siyasətdən bəhrələnməyə inamla çalışan qurumlardan biri də Vətən müharibəsinin lap ilk günlərindən, bu günə qədər maddi və mənəvi himayəsini əsgərlərimizə, şəhid ailələrinə, qazilərə əsirgəməyən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasıdır (AHİK). Başda AHİK-nın sədri, millət vəkili Səttar Mehbalıyev olmaqla, demək olar ki, bütün rayon və şəhərlər üzrə təşkilatlanan həmkarlar birlikləri tərəfindən mütəmadi olaraq ön və arxa cəbhədə yerləşən hərbi hissələrə gedib, yaralıların ehtiyaclarını ödəmək üçün dərman ləvazimatı, ərzaq, geyim və s. aparılıb. Məntiqə uyğun olaraq, təbii ki, AHİK-nın tərkibində fəaliyyət göstərən "Xidmət-İş" (HİF) Azərbaycan Həmkarlar İttifaqları Federasiyası da bir komanda kimi yuxarıda sadalanan istiqamətlərdə vəzifəsinə sadiq qalaraq bütün imkanlarını səfərbər edib. Bəlli olduğu kimi, bütün dünya təcrübəsində Həmkarlar təşkilatlarının iş prinsipi məhz fərqli düşüncə tərzinə, fərqli baxış bucağına malik olan insanların bir araya gəlməsi, bir və ya bir neçə ortaq məqsədlər istiqamətində birləşməsi üzərində qurulur.

Qarabağ savaşının ilk günündən sona qədər ordumuzun - əsgərlərimizin, daha sonra şəhid ailələrinin, qazilərin yanında olan "Xidmət-İş" HİF-nin əməkdaşları iyun ayının 17-də Qazax şəhərində Dayanıqlı İnkişaf Məqsədləri (DİM) həyata keçirilməsi istiqamətində təşkil olunmuş tədbirdə iştirak ediblər. Tədbirin ərsəyə gəlməsi Qazax (RİH) Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov və "Xidmət-İş" HİF-nin dəstəyi ilə həyata keçirilib.

Şəhidlərimizin müqəddəs ruhunu, əziz xatirəsini ehtiramla, şərəf və qürur hissi ilə yad etmək hər bir azərbaycanlının borcudur. Rəcəb Babaşov tədbirdən öncə qonaqlar ilə birlikdə Qazax şəhərinin Şəhidlər Xiyabanını ziyarət edib, Şəhidlərimizin - qəhrəman vətən oğullarının əziz xatirəsini dərin hörmət hissi ilə anıblar. Şəhidlər Xiyabanındakı abadlıq, səliqə-səhman rayon rəhbərliyinin bu məsələyə nə dərəcədə həssas yanaşmasından xəbər verir.







Ümumiyyətlə, rayon ərazisində bir çox tarixi yerlərin abadlaşdırılması, diqqət mərkəzində saxlanılması, qayğı ilə qorunması danılmaz həqiqətdir.

Bu yurda, onun yurddaşlarına qarşı göstərilən hörmət üçün ancaq minnətdar olmaq qalır. Əminliklə demək olar ki, qazaxlıların məişətlə, gündəlik həyat tərzi ilə əlaqəli bütün problemləri rayon rəhbərliyinin, başda Rəcəb Babaşov olmaqla aidiyyəti olan məsul şəxslərin diqqətindən kənarda qalmır. Müxtəlif təbəqələrin nümayəndələri ilə, istər təsərrüfatda çalışanlar, istər təhsil sahəsində fəaliyyət göstərənlər, istərsə də təqaüddə olan insanlarla görüşlər zamanı söhbətlər əhalinin məmnunluğunu çox obyektiv şəkildə ifadə edir.

Şəhid ailələrinə və qazilərə, I Qarabağ müharibəsinin veteranlarına yönləndirilən ardıcıl sosial və maddi tədbirlər ürəkaçandır. Aztəminatlı və fiziki məhdudiyyəti olan insanların təminatı rayon rəhbərinin xoşməramlı iş proqramıdır. Abad və işıqlı küçələr, xüsusi zövqlə düzəldilmiş və yolların kənarında yerləşdirilmiş su şırnaqları... bir sözlə, hər şey sistemli şəkildə cənab Prezident İlham Əliyevin yürütdüyü siyasəti ali tutub, əhalinin rifahının yüksəldilməsi, sosial layihələrin ardıcıl şəkildə həlli üçün R.Babaşov başda olmaqla Qazax RİH-nin gecə-gündüz yorulmadan çalışmasının göstəricisidir. Gürcüstan və Ermənistanla sərhəd xəttində yerləşən kəndlərin rifahını nəzərdə tutan yeni bir layihənin də sorağını aldıq. Həyata keçirilən islahatların hamısını tam şəkildə ifadə etmək çox çətindir.

Kaş ki, hər kəs gələ, bu gözəllikləri öz gözləri ilə görə...

Tədbirdə iştirak edən "Xidmət-İş" HİF-nin vitse-prezidenti Xəyyam Nəsibov da bu incə məqamı öz çıxışında xüsusi olaraq vurğulayıb. X.Nəsibov Vətən müharibəsində həlak olmuş şəhidlərimizin ailələrinə göstərilən diqqətə və rayonda həyata keçirilən sosial layihələrə, mədəniyyət sahəsində və bütövlükdə ictimai inkişaf istiqamətində aparılan doğru iş prinsipinə görə rayon rəhbərliyinə təşəkkür edib. Xəyyam Nəsibov qeyd edib ki, Qazax respublikamızın qərbində yerləşən sərhəd rayonlarındandır və "Qərb qapısı" olaraq, bu rayonun sevilməyə, seçilməyə mənəvi haqqı var. Təməli XX əsrin əvvəlində qoyulmuş "Qazax Müəllimlər Seminariyası"nın ziyalı ənənəsi Qazax şəhərinin və qazaxlıların qürurudur. Unutmaq olmaz ki, Qazax M.P.Vaqifin, M.V.Vidadinin, S.Vurğunun, İsa Muğannanın, T.Bünyadovun, M.Hüseynin, İ.Şıxlının, N.Həsənzadənin, Davud Nəsibin və bir çox dəyərli şəxsiyyətlərin göz açıb, boya-başa çatdıqları yurddur. "Qazax Müəllimlər Seminariyası"ndan sonra burada ADA Akademiyasının Qazax filialının açılışı bölgədə təhsilimizin zənginliyindən xəbər verir. Qazax əhalisi Akademiyanın açılışını səbirsizliklə gözləyir, bu cür təhsil ocağının gənc nəslin mədəniyyətimizə, tariximizə layiq olub, vətənpərvər və peşəkar yetişdirilməsinə əminliklə inanır.

X.Nəsibov çıxışının sonunda bir daha qeyd edib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasəti sayəsində qazandığımız Zəfəri dəyərləndirib, tərəqqi, birlik, mənəvi və maddi yüksəliş yolunda hədəflərə nail olmalı və aparılan gənclər siyasəti, sosial layihələrin təşkili, əhalinin rifahı, asudə vaxtlarını səmərəli keçirmək üçün hər birimiz dayanmadan işləməliyik.

"Biz birlikdə dövlətimizin sarsılmaz qüdrətini artırmaqla, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun daha da güclənməsinə xidmət etməliyik!"- Məqsəd-Əməl-Niyyət, hamısı bir istiqamətə yönəlməlidir. Bu şəkildə biz sarsılmaz qalıb, gələcək nəsillərin doğru, mətin yürüməsinə möhkəm zəmin qoymuş oluruq.

Daha sonra şəhərdə qurulan-qürurlandıran layihələrin baxışı keçirildi.

Sonda foto şəkillər çəkildi.

*Son söz kimi fərəhlərimi kiçik bir şeirə çevirmək istədim...*

**Doğma yurdu, abad yurdu,**
**Gözüm gördü, könlüm sevdi.**
**Hər gülünə-çiçəyinə,**
**Şair eşqim şeir dedi.**
**Sırmalanıb-sığallanıb,**
**Göyəzənin ətəyində,**
**Şirin-şirin cığır salıb,**
**Vurğun sözü ürəyimdə.**
**Gözəl obam, elim Qazax**
**Dadlı, duzlu Damcı bulaq**
**Sən igidlər diyarısan,**
**Tərifinə dastan yazaq**

**Günər Əliyev,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Soyuqqanlı davranmaq lazımdır

## "Sürücü özünü müdafiə edir"



**Sumqayıt şəhərində sərnişinlə sürücü arasında baş verən mübahisə ilə bağlı müzakirələr davam edir. Hadisə iyunun 16-da şəhər ərazisində 12 saylı xətt üzrə hərəkət edən sərnişin avtobusunda baş verib. Bir-birinə nalayiq ifadələr işlətdikdən sonra tərəflər arasındakı mübahisə əlbəyaxa davaya çevrilib.**

Şəhər sakini Sənubər Baxşəliyeva ilə sürücü arasında baş verən mübahisə zamanı sürücü sərnişini itələyib. Bu zaman qadın avtobusdan yerə yıxılıb. İctimailəşən hadisə haqda hər kəs fərqli mövqe sərgiləyir. Sosial şəbəkələrdə istifadəçilər iki cəbhəyə ayrılıb: sürücünü özünümüdafiə etdiyi üçün dəstəkləyənlər və qadını itələdiyinə görə sürücünü tənqid edənlər. Qeyd edək ki, qadını avtobusdan itələyən sürücü Aqil Kosayev hadisədən sonra işdən çıxarılıb. Xəsarət alan Sənubər Baxşəliyevanın vəziyyəti isə qənaətbəxşdir.

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq, Aydın Xan Əbilov "Şərq"ə danışıb. Onun sözlərinə görə, nəqliyyatda insanların bir-birinə qarşı aqressiv münasibəti hər zaman ictimai qınaq yaradıb:** "Əgər qadının yerində kişi olsaydı, sürücüyə yumruq vursaydı, yenə də insanlar sərnişini müdafiə edəcəkdilər? Çox güman ki, qadın dayanacaqdan kənarda saxlamağı xahiş edib. Sürücü də etirazını bildirəndən sonra qadın radikal, ağır söyüşlərlə sürücüyə hücum çəkib.

Sürücüyə əl çantası ilə zərbə endirən qadının günahı ucbatından o, müvazinətini itirə bilərdi. Avtobus qarşıdakı nəqliyyat vasitəsilə toqquşsaydı, onlarla sərnişin xəsarət alsaydı, onda həmin qadını dəstəkləyərdikmi? Çox mübahisəli məsələlər var.

***Aydın Xan Əbilov: "Nəqliyyat ictimai yerdir, qadını itələməsəydi, daha yaxşı olardı"***

Gördüyüm qədər qadın aqressiv reaksiya verir, sürücü özünü müdafiə etməkdən ötrü qadını itələyir. Nəqliyyat ictimai yerdir, qadını itələməsəydi, daha yaxşı olardı. Soyuqqanlı davranmaq lazımdır.

Görüntülər olmasaydı, "sürücü qadını təpikləyib" yalanına hamımız inanacaqdıq. Çəkilişdən bəllidir ki, sürücü sükan arxasındadır, qadın onun üstünə gəlir. Sürücü də özünü qorumaqdan ötrü bir az kobud, hər halda müdafiə xarakterli hərəkət edir.

İctimai nəqliyyatda özümüzü apara bilmirik, etik davranış qaydalarına riayət etmirik. Sürücülərə isə "qul" kimi yanaşırıq. O, ailəsinə çörək aparır, özü də işdən çıxarılmasını istəməz".

*Kulturoloqun qənaətincə, insanlar evdə yaşadığı problemlərini ictimai nəqliyyata daşıyır:* "Mənim başıma da belə bir hadisə gəlib. Restoranda dostlarımızla danışırdıq. Qadın yüksək səslə, deyib-gülərək danışmağımıza irad tutmuşdu. Biz ona başa sala bilmədik ki, restoran əylənmək, başqalarına mane olmamaq şərtilə möhkəm danışmaqdan ötrüdür. Əgər qidalanmaq üçün gediriksə, evdə də yeyə bilərik. Sonradan qadının ailəsində problem yaşadığı məlum oldu. O, problemini ətrafa yansıdır.

Yaşlı qadın sərnişinlərin kişilərə, gənclərə kobud münasibətini görürük. Pul verib avtobusa minib arxada əyləşirsə, qadın hansı haqla "dur, mənə yer ver" deyə bilər?".

**Aydın Xan Əbilov bildirib ki, ictimai nəqliyyatda davranış normaları ilə bağlı layihələr həyata keçirilməlidir:** "Nəqliyyat Nazirliyi, Sumqayıt şəhər ictimai nəqliyyatına cavabdeh qurumlar və digər müvafiq orqanlar QHT-lərlə, ziyalılarla, yaradıcı şəxslərlə ictimai davranış normalarına dair layihələr reallaşdırmırlar. Halbuki, milyonlar qazanırlar.

Marşrut dövlət büdcəsindən alınıb, məmurlar da həmin büdcədən maliyyələşirlər. Həm sürücü, həm də sərnişin davranış mədəniyyəti ilə bağlı layihə gerçəkləşdirməyi söyləyəndə "pul yoxdur" deyirlər.

İsti hava, problemlərin çoxalması, post-pandemiyadan sonra göstərdikləri aqresiya bu tipli hadisələrin çoxaldacaq.

Monitorinqlər keçirilməli, sosial çarxlar hazırlanmalıdır. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, lisenziya verən dövlət təşkilatları, məmurlar, QHT-lər ictimaiyyətin tanınmış nümayəndələri, ziyalılar maarifləndirici işlər aparmalıdır".

**Aygün Tahir**




## Bakcell abunəçiləri üçün onlayn qaydada eSIM almaq imkanı

**Bakcell abunəçiləri eSIM əldə etmək üçün artıq onlayn qaydada müraciət edə biləcəklər. Bir müddət əvvəl Azərbaycanda ilk dəfə olaraq eSIM texnologiyasını tətbiq edən Bakcell bununla bağlı daha bir yenilik edib.**

Mobil nömrəsi hazırda aktiv olan abunəçi esim.bakcell.com səhifəsinə daxil olub istifadəsindəki mövcud Bakcell nömrəsini, əldə etmək istədiyi yeni mobil nömrəni (eSIM), ad və soyadını, şəxsiyyət vəsiqəsinin nömrəsini və müvafiq FİN kodunu qeyd etməlidir. Bu zaman ekranda əks olunan xüsusi QR kodu skan etməklə yeni eSIM virtual nömrəni əldə etmək mümkündür.

SmartfonuneSIM texnologiyasını dəstəkləməsini yoxlamaq və xidmət barədə daha ətraflı məlumat almaq üçün esim.bakcell.comsəhifəsinə keçmək lazımdır. Azərbaycanda ilk dəfə olaraq Bakcell tərəfindən istifadəyə verilmiş eSIM sayəsində plastik SIM karta ehtiyac qalmır. Yeni nəsil SIM texnologiyası olan eSIM Bakcell abunəçilərinə mobil şəbəkəyə qoşulmaq və rabitə xidmətlərindən istifadəni xeyli sadələşdirən yeni imkanlar yaradır.eSIM vasitəsilə tək SIM kartlı smartfonlarda bir neçə nömrədən istifadə etmək mümkündür.

# Həkim müayinəsinə gedən qadınların sayı artıb

## Ona görə ana ölümlərinin statistikasında azalma müşahidə olunur



**"Azərbaycanda ana ölümlərinin göstəricisi 100 minə 26 nisbətindədir".**

Bu sözləri İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Səhiyyə siyasəti və planlaşdırılması şöbəsinin əməkdaşı Könül İsmayılova deyib. Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkikatının məlumatında bildirilir ki, dünyada qadınlar arasında olan reproduktiv və cinsi xəstəliklər ümumi xəstəliklərin 20 faizini, kişilər arasında isə 14 faizini təşkil edir: "Reproduktiv sağlamlıq insan inkişafında ən vacib məqamlardan biridir. Ölkəmizdə ana və uşaq ölümlərinin sayı ciddi şəkildə azalıb. UNİCEF-in məlumatına görə, hər 100 min ana namizədi arasında 26 ölüm halı qeydə alınıb. Bu da kifayət qədər azalma ilə müşahidə olunan rəqəmlərdir. Təbii ki, bu rəqəm pandemiyaya qədər olan statistikadır. Bu rəqəm hazırda enməkdə davam edir".

**Ginekoloq Təranə Həsənova da "Şərq"ə açıqlamasında sözügedən sahədə müsbətə doğru irəliləyişlərin olduğunu deyib. Onun sözlərinə görə, burada əsas məsələ səhiyyənin düzgün təşkilindən ibarətdir:** "Ana və uşaq ölümünün geniş vüsət almasının əsas səbəbi doqquz aylıq müddətdə ananın orqanizminin doğru-düzgün təhlil olunmamasından irəli gəlirdi. Dəfələrlə qeyd etmişik ki, hamiləliyə planlı şəkildə hazır olmaq üçün dünyaya övlad gətirmək istəyən qadın hamiləlikdən öncə həkimə müraciət etməlidir. İlk növbədə qanın ümumi analizindən tutmuş, bütün lazım olan hər şey yoxlanılmalıdır. Bu istiqamətdə əhali arasında çox ciddi bilgiləndirmə olmalıdır. Ona görə də ana və uşaq ölümlərinin azalmasında bu sahədə aparılan maarifləndirmə işlərinin də önəmli payı var". T.Həsənova əksər ölümlərin vaxtında aşkarlanmamış xəstəliklərin nəticəsində baş verdiyini deyib: "Hər hansı bir qadının hamiləlik müddətində və hamiləlikdən əvvəl mövcud olub hamiləlik dövründə aktivləşən patalogiya yavaş-yavaş, bəzən də sürətlə inkişaf edərək bədbəxt hadisə ilə nəticələnir. Yəni doqquz aylıq müddətdə ananın orqanizminin doğru-düzgün təhlil olunmaması ana və uşaq ölümlərinin əsas səbəblərindəndir. Hamiləliyə nəzarət edən həkim bunu vaxtında görüb qiymətləndirməli, qarşısını almaq üçün mümkün müalicə metodlarından istifadə etməlidir. Bu zaman ananın həyatı üçün heç bir təhlükə olmur. Ən pis halda hamiləlik vaxtından əvvəl sonlandırılır və ana salamat qalır. Mümkün olduqda isə həkim təqibi ilə hamiləlik müəyyən vaxta qədər aparılır və sonda həm uşaq, həm də ana həyatda qalır. Təəssüflər olsun ki, hələ də gəlinini 9 ay müddətində həkimə aparmaması ilə fəxr edən qayınanalar, həkimə getməyərək sağlam uşaq dünyaya gətirdiyini iddia edən qadınlar var. Hesab edirəm ki, maarifləndirmə yolu ilə zamanla bu problem müəyyən qədər azalar".

**Şəymən**

# Dərsdə ləhcəylə danışmaq yolverilməzdir

## Orta məktəb müəllimləri Azərbaycan dilini mükəmməl bilməlidir, dialektlərlə danışmamalıdır



**Dünyanın bir çox ölkələrində öz ana dilində sərbəst, normal dil normalarına uyğun danışa bilməyən müəllimlərin siniflərə daxil olmasına icazə verilmir.**

2017-ci ildə İranın Təhsil Nazirliyi fars dilində təmiz danışa bilməyən, ləhcə ilə danışan müəllimlərin auditoriyaya girməsini yasaqlayan qərar qəbul edib. Ukrayna Təhsil Nazirliyində də xüsusi komissiya var. Həmin komissiya müəllimlərin Ukrayna dilində təmiz danışması ilə bağlı attestasiyalar keçirir. Yalnız bu attestasiyadan keçən müəllimlər auditoriyaya buraxılır.

Azərbaycanda isə ekspertlər bununla bağlı xüsusi bir qanun qəbul etməyə ehtiyac görmürlər. Qeyd olunub ki, son vaxtlar dilçiliyin inkişafı ilə bağlı kifayət qədər ciddi sənədlər qəbul olunub. Dövlət dili haqqında, qloballaşma şəraitində Azərbaycan dilinin işlənməsi, Azərbaycan dili və Azərbaycan əlifbası haqqında, kargüzarlıq haqqında qanunlarımız var. Problemlər bu qanunlara əməl edilməsi ilə bağlıdır.

*Maraqlıdır, ləhcə və dialektlə danışan müəllimlərin təhsil müəssisələrində çalışması nə qədər məqsədəuyğundur?*

**Siyasi şərhçi Azər Həsrətin fikrincə, bu məsələ illərdir üzərinə gedilən, amma heç cür həllini tapmayan bir problemdir. Onun sözlərinə görə, məktəb müəllimləri, ümumiyyətlə, pedaqoqlar dərs müddətində ləhcə ilə danışmamalıdır:** "Amma başqa yerləri demirəm, Bakının məktəblərini bir nəzərdən keçirən olsa, baxın, nə qədər müəllim ləhcəylə danışır? Az qala yerindən duran ləhcəylə danışır. Belə adamlara pedaqoq demək olmaz! Orta və ali məktəblərdə Azərbaycan dilini bilməyən, dialektlə, ləhcə ilə danışan müəllimlərin auditoriyaya girməsi arzuedilən deyil. Bu məsələni diqqətdə saxlamaq lazımdır. Orta məktəb müəllimləri Azərbaycan dilini mükəmməl bilməlidir, dialektlərlə danışmamalıdır.

Digər bir məsələ də odur ki, müəllimlər bir-biriləri ilə "sən"lə danışırlar. Hətta direktorla belə! Bu ferma təfəkkürlü adamlardan yeni nəsil nə götürə bilər axı? Şəxsi münasibətlərdə, təhsil müəssisəsindən kənarda - əgər kiminsə kiminləsə səmimiyyəti varsa - "sən"lə danışmaq olar. Amma pedaqoji prosesdə "sən"lə danışan adamı nəinki məktəbə, heç adi fermaya da buraxmaq olmaz. Çünki belələri ədəbin nə olduğunu bilməzlər. Bu cür mağara təfəkkürlü adamları təhsildən uzaq tutmaq lazımdır! Gələcək nəslin ədəbini düzgün yönəltmək istəyiriksə, belə adamları ya yenidən tərbiyə etməli, ya da təhsildən uzaqlaşdırmalıyıq".

**Təhsil eksperti Elçin Əfəndinin "Şərq"ə açıqlamasına görə, "Təhsil haqqında" qanunvericilikdə müəllimlərin dil bilgiləri ilə bağlı xüsusi tələblər var:** "İşə qəbul zamanı müəllimlərlə müqavilə bağlanan zaman onların Azərbaycan dilinin ədəbi normalarına riayət etmələri ilə bağlı xüsusi tələblər qoyulur. Pedaqoqların Azərbaycan dilinin etik normalarına əməl etməsi mühüm şərtdir. Mən də hesab edirəm ki, müəllimlərin məktəb daxilində ləhcə və dialektlərdən istifadə etməsi yolverilməzdir. Ümumiyyətlə, müəllimlər dərs gedişatında məişət üslubuna yox, elmi üsluba üstünlük verməlidir. Çünki məhz bu peşə sahibləri, yüzlərlə uşağın nitq qabiliyyətinin, danışıq vərdişinin və ümumiyyətlə, leksikonunun formalaşmasında bilavasitə iştirak edirlər. Bununla bağlı Təhsil Nazirliyi tərəfindən müvafiq təlimatlar verilməli, xüsusi təlimlər keçirilməlidir".

**Şəymən Bayramova**



## Flora Kərimova Afət Fərmanqızıdan təzminat tələb edir

**Xalq artisti Flora Fərimova müğənni Afət Fərmanqızı ilə bağlı növbəti dəfə məhkəməyə müraciət edib.**

APA xəbər verir ki, Xalq artisti bu dəfə Nərimanov rayon Məhkəməsində mülki iddia qaldırıb. İddiada Afət Fərmanqızının üzr istəməsi və dəymiş mənəvi ziyana görə maddi təzminat tələbi irəli sürülüb.

İş üzrə məhkəmənin hazırlıq iclası avqustun 10-a təyin olunub.

*Xatırladaq ki, Flora Kərimovanın Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında şikayəti ilə bağlı Binəqədi Rayon Məhkəməsində araşdırma aparılır. Həmin işdə Afət Fərmanqızı məhkəməyə gəlmədiyi üçün cinayət işi üzrə icraat müvəqqəti dayandılıb. Xüsusi ittimaçı Afət Fərmanqızının Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə ittiham edir.*

**Elan**

Əsgərov Şamil Məhəmmədəli oğlunun adına verilmiş Qarabağ Müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Zaur Kamal kamalsız davranıb

## Zeynal Məmmədli: "Olay elə davranışa, üstəlik, Güney Azərbaycandan olan soydaşımıza olan hərəkətə bəraət qazandıra bilməz"

## Ləman Ələşrəfqızı: "Bu hallara heç bir tədbir görmürlər"



**Aparıcı Zaur Kamalla cənubi azərbaycanlı müğənni Afşin Azəri arasında gərgin anlar yaşanıb. Zaur "Həmin Zaur" verilişində qonaq olan Afşini studiyadan çıxarıb.**

"Efirdən kənarda mənimlə başqa tonda danışdınız, xoşuma gəlmədi" deyərək ifaçıdan verilişi tərk etməsini istəyib. Afşin Azəri isə "sizin dedikləriniz yadıma gəlmir" deyərək etiraz edib.

Zaur Kamal daha sonra "Kişilikdən deyil ki, məni görəndə kənara fırlanırsız. Mən səni bu gün efirdən çıxaracam. Sən bir də mənim proqramımda olmayacaqsan" deyərək reklam fasiləsi elan edib.

**Hadisə ilə bağlı "Şərq"ə danışan Zeynal Məmmədli bildirib ki, efirarxası olayın əsas gətirilməsi, təbii ki, düzgün deyil:** "Ayrıntıları bilmirəm, amma istənilən halda aparıcı birmənalı qarşılanmayacaq davranışa yol verməməlidir. Seyrçinin bilməyəcəyi bir olay elə davranışa, üstəlik, Güney Azərbaycandan olan soydaşımıza olan hərəkətə bəraət qazandıra bilməz".

**Ləman Ələşrəfqızı da açıqlamasında bildirib ki, aparıcının atdığı addım düzgün deyil:** "Mən də sosial mediada öz münasibətimi qısa olaraq bildirdim. Orada da qeyd etmişəm ki, bu cür Zaur "Kamalsızlar" bu gün efirləri doldurublar. Bu adamlar o qədər çoxluq təşkil edirlər ki, hansı kanalı açsan, mütləq orada bir "kamalsız" var. Onlar kitab oxumayan, peşə etikasına uyğun olmayan, insanların alt şüuruna bu cür səviyyəsiz söhbətləri ilə təsir edən insanlardır. Bu gün rayonlara gedin, onlar yetərincə məşhurdurlar. Çünki onlar illər ərzində apardıqları bayağı təbliğat ilə əhalini də özlərinə oxşada biliblər.

Zaur Kamallar nahaqdan ortaya çıxmırlar. Ona görə bu gün də yazdım ki, ARB kanalında Zaur Kamala heç kim heç nə deməyəcək. Bu hallara heç bir tədbir görmürlər. Ona görə də "burada mənəm, Bağdadda kor xəlifə".

**Çimnaz Şahlar**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1774



## Acı xəbər gəldi

### İtlərin hücumuna məruz qalan uşaq ölüb

**Türkiyənin Ağrı bölgəsində itlərin hücumuna məruz qalan uşaqdan acı xəbər gəldi.**

Ağrının Patnos rayonunun Akdilek kəndində itlərin hücumuna məruz qalan Əli Asəf Aktekin (2) ətrafdakıların köməyi ilə xilas edilərək Patnos dövlət xəstəxanasına aparılıb. Həyati təhlükəsi olan balaca burada edilən müdaxilədən sonra Trabzona köçürülüb. Buradan da Van Təhsil və Araşdırma Xəstəxanasına köçürülən Asəf 15 gündür verdiyi yaşam mübarizəsindən sonra həyatla vidalaşıb.

Balaca oğlanın cənazəsi Akdilek kəndində torpağa tapşırılıb.

**Turan**

## Adel yeni sevgilisi ilə ilk dəfə görüntülənib





**Məşhur müğənni Adel sevgilisi, amerikalı baksetbol meneceri Riç Paulla ilk dəfə ictimaiyyət arasında birgə görüntülənib.**

Axşam.az xəbər verir ki, cütlük model Keyt Bokla basketbolçu Kevin Lavın toyunda iştirak ediblər. Nyu-Yorkda baş tutan tədbirə müğənni 6900 avroya olan "Alexander McQueen" libası ilə qatılıb.

*Qeyd edək ki, Adel ötən ilin martında həyat yoldaşı Simon Konecki ilə boşanıb. Onun bu evlilikdən Ancelo adlı oğlu var. Adel və Riç bir neçə il əvvəl ortaq dostları vasitəsilə tanış olublar. İkili aktyor Silvestr Stalonnidən 58 milyon dollara aldıqları yeni malikanələrində yaşayırlar.*

## Hamilə olduğu təsdiqləndi



**Məşhur aktyor Tom Hiddlston ata olacaq.**

Axşam.az xəbər verir ki, aktyorun nişanlısı aktrisa Zavi Eşton "Cənab Malkolmun siyahısı" filminin premyerası çərçivəsində qırmızı xalçada obyektivlərə tuş gəlib. Fotolarda aktrisanın hamilə olduğu təsdiqlənib.

*Xatırladaq ki, ikili "BAFTA" festivalına qatılarkən Zavinin böyük paltar seçimi hamiləlik iddialarının yaranmasına səbəb olmuşdu. Qeyd edək ki, cütlük 2019-cu ildə "Xəyanət" filminin çəkilişlərində tanış olub. Bu yaxınlarda Tom müsahibəsi zamanı Zavi ilə nişanlandığını təsdiqləyib.*

## Tanınmış yazar xərçəngin qurbanı oldu



**2016-cı ildən bəri bağırsaq xərçəngi ilə mübarizə aparan tanınmış yazar, jurnalist Debora Ceyms vəfat edib.**

**Axşam.az xəbər verir ki, bu barədə onun instaqram hesabında yaxınları yazıb. Bildirilib ki, yazar 40 yaşında xərçəngdən dünyasını dəyişib.**

***Qeyd edək ki, Deboranın "The Sunday Times", "The Sun", "Daily Mail", "The Times", "Grazia, "Women's Health" kimi məşhur nəşrlərdə yazıları dərc olunub. O, son kitabını məhz xərçənglə mübarizəyə həsr etmişdi.***

## Hadisə Bakıdakı məzun gecəsi ilə bağlı paylaşım edib



**Türkiyəli aktrisa Hadisə Bakı ilə bağlı paylaşımı ilə diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, Bakı Dövlət Universiteti Milli Gimnastika Arenasında məzun günü ilə bağlı əyləncəli gecə keçirib. Səhnədə səsləndirilən mahnılardan biri də "Düm tek tek" olub. Həmin görüntülər ifaçının fanat səhifəsində yayımlanıb. Hadisə həmin anları öz hesabında da izləyiciləri ilə bölüşüb.**

## 20 kilo ağırlığında geyimlə gündəm oldu

### Modelin jurnal və kataloqlarda istifadə olunacaq fotoçəkilişləri 8 saat çəkib



**Türkiyənin Şanlıurfa bölgəsində 12 min illik tarixi ilə "tarixin sıfır nöqtəsi" sayılan və YUNESKO-nun Dünya İrs Siyahısında yer alan Göbeklitəpədə moda çəkilişi keçirilib.**

**Oxu.az xəbər verir ki, çəkilişlərdə "Miss Europe 2021" gözəllik yarışmasının 3-cü qalibi Duyğu Çakmak iştirak edib. Çakmak 20 kiloqramlıq geyimi diqqət çəkib. Göbeklitəpədə çəkilişlərə qatılan modelin jurnal və kataloqlarda istifadə olunacaq fotoçəkilişləri 8 saat davam edib. Duyğu Çakmağın üzərində modelyer Perihan Demirdelen tərəfindən Göbeklitəpədən ilhamlanaraq hazırlanan və çəkilişlərini moda fotoqrafı Turan Altayın gerçəkləşdirdiyi 20 kiloqramlıq geyimlər də diqqət çəkib.**





# Şahzadə Diananın bədən dili

### Bu gün də dünyanın diqqət mərkəzindədir







**Böyük Britaniya kraliçası II Yelizavetanın oğlu, şahzadə Çarlzın keçmiş həyat yoldaşı şahzadə Diana ölümündən 25 il keçməsinə baxmayaraq bu gün də diqqətləri üzərinə çəkə bilir.**

Şahzadə Diananın vəfatının 25-ci ildönümünə yeni sənədli film hazırlanıb. Filmin çəkilişləri zamanı şahzadə xanımla bağlı yeni detallar üzə çıxıb. Sənədli filmdə şahzadə Diananın bədən dilindən çox məharətlə istifadə edə bildiyi görünür. Bu barədə "Milliyet.com" məlumat verib. Bildirilir ki, sağ olsaydı, bu gün 61 yaşını qeyd edəcək şahzadə Diana hər zaman fərqliliklər yarada bilib. Ətrafdakılardan seçilməyi bacarıb. Lakin bu fərqlilik malik olduğu yüksək statusa görə deyil, Diananın daxilindəki sadəlik, təvazökarlıq, səmimiyyət, mehribanlıq və cəsarətlə ölçülür. Şahzadə HİV, AİDS, cüzam xəstəlikləri barədə dünyaya səs salan qadındı. Şahzadənin kasıb, aclıqla mücadilə edən ölkələrə səfərləri, afrikalı uşaqlarla səmimi görüşləri dünya əhalisinin ona rəğbətini hər keçən gün artırırdı. Ölümündən bir neçə ay əvvəlsə şahzadə Diana Afrika ölkəsi Anqolaya səfər edib, minalanmış ərazidə qorxmadan addımlamışdı və bununla dünyaya "müharibələrə yox!" mesajını vermişdi. Bu səfər 1997-ci ildə olub. Əyninə qoruyucu jilet geyinmiş şahzadənin minalanmış ərazidə çəkinmədən addımlaması fotokameraların yaddışına yazılıb. Bədən dili mütəxəssisi Judi James şahzadənin minalanmış ərazidə addımlayarkən üz cizgilərini, hərəkətlərini incələyib bu qənaətə gəlib ki, şahzadə sərbəst addımlarıyla ətrafındakılara heç nədən çəkinmədiyini sübut edib. Şahzadənin bu davranışı böyük təsir gücü yaradıb. Mütəxəssis "bu, şahzadənin sözsüz açıqlaması idi. Hər hansı açıqlamaya, bəyanata ehtiyac qalmadan sadə, lakin güclü təsirə malik davranış idi. Bu həm də qarşıdakı illərdə kral ailəsində yaşanacaq köklü dəyişikliklərə işarə idi. Şahzadənin minalanmış ərazidə çəkinmədən addımlaması minalarla mübarizədə dönüş nöqtəsi oldu", deyib. Bu səfərdən sonra 4 may Minalarla Mübarizə Günü kimi qeyd edilməyə başlandı. Diananın oğlu şahzadə Harri də anasının yoluyla gedib. Şahzadə 2019-cu ildə - anasından 22 il sonra eyni əraziyə səfər edib,



anasının şərəfinə adlandırılmış "Diana ağacı"nın altında dayanıb, "Şahzadə Diana" küçəsiylə addımlayıb. Şahzadə Harri "əgər anam illər öncə bura gəlməsəydi, bura hələ də minalanmış bir ərazi olacaqdı" , söyləyib.

**Məlahət Rzayeva**







# Dəhşətli intiqam...

### Keçmiş nişanlısının üzünə kimyəvi maddə atdı

**Türkiyənin Konya şəhərində ayrıldığı nişanlısının üzünə kimyəvi maddə atan şəxsin hadisədən bir gün öncə qızın evinin önünə gəldiyi görüntüləri yayılıb.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, hadisə iyunun 19-da Bakkalbaşı məhəlləsində baş verib. Mərve Küçüktekinin evinə gələn keçmiş nişanlısı Sabit Türk "Su saatını yoxlayacağıq, bacı" deyərək qapını açdırıb. O, bu zaman plastik butulkadakı yanar kimyəvi maddəni Mərvenin üzünə atıb. Üz və bədənində yanıq xəsarətləri alan K.Mərve müalicə üçün Konya Şəhər Xəstəxanasına aparılıb.

Hadisədən sonra avtomobili ilə qaçan şəxs polis qrupları tərəfindən İlgın rayonundan İzmirə qayıdarkən saxlanılıb. Sabit Türk polis idarəsindəki əməliyyatlardan sonra "qəsdən xəsarət yetirmə" ittihamı ilə həbs edilib. Sabit Türk prokurorluqdakı ifadəsində K.Mərvenin onu təhqir etdiyi üçün bu addımı atdığını deyib.

Çaxnaşma içində hadisə yerindən qaçdığını sözlərinə əlavə edən S.Türk, belə davam etdi: "Maşınıma minib İzmirə yola düşdüm. Hüquq-mühafizə qrupları məni İlgın rayonunda yaxaladı. Mən ümumiyyətlə kürək çantamla gəzirəm. Çantamda bu mayenin olmasının səbəbi maşınımı təmizləməkdir. Maşınımın təmizliyinə diqqət edirəm. Çantama maye qoymaq istəməyimin səbəbi paltarıma zərər verməməkdir.

Məlum olub ki, Sabit Türk hadisədən bir gün əvvəl Merve Küçüktekinin işlədiyi marketə gedərək kəşfiyyat işləri edib. İş yerinin təhlükəsizlik kameralarında onun müşahidələr apardığı görünür.

Merve Küçüktekinin vəkili Aycan Ceylan iddia edib ki, görüntülər Sabit Türkün hadisəni planlaşdırdığını və onu dəhşətli bir hisslə reallaşdırdığını göstərir.

Qızın səhhətinin getdikcə yaxşılaşdığını deyən vəkil Ceylan, "Mərvenin müalicəsi davam edir. O hələ də müşahidə altındadır. Bədəninin bəzi yerlərində, xüsusilə həyati təhlükəsi olan yerlərində 1-ci və 2-ci dərəcəli yanıqlar var. Hələ də üzündə və bədənində sarğılar var"- deyib.

**Çimnaz Şahlar**

## Cüneyt Arkının son vidası

### O, sevənlərinə, sevənləri də ona "salam" verərək yola salındı



**85 yaşında həyatla vidalaşan türk kinosunun əfsanə ismi Cüneyt Arkın dünən son mənzilə yola salınıb.**

"Ulduz" aktyorla vida mərasimi Atatürk Mədəniyyət Mərkəzində təşkil edilib. Mərasimə minlərlə insan axın edib. Aktyorun oğlu Murat Arkın mərasimdə çıxış edərək "bu gün sizlər sayəsində anladım ki, ailəmiz zənn etdiyimdən çox daha böyük, çox daha gözəl imiş. Atam həyatı boyunca millətim, xalqım, Vətənim, dedi. Onun cənnətə gedəcəyinə əminəm. Bu cür insanlar Cənnəti Vətən edən insanlardır", deyib. Vida mərasiminə gələn türk kinosunun başqa bir əfsanəsi - Türkan Şoray da illərlə onunla çiyin-çiyinə dayanıb unudulmaz filmlər ərsəyə gətirən dostunun tabutuna sarılaraq göz yaşları töküb. Cüneyt Arkının cənazəsi mərasimdən sonra Teşvikiyə Camesində qılınan cənazə namazının ardından Zincirlikuyu məzarlığında dəfn edilib. Əfsanə adamı yola salmağa gələn minlərlə insan cənazə namazında və dəfn mərasimində iştirak edib. Mərasimə rəsmi şəxslər də qatılıb. İstanbul valisi Ali Yerlikaya isə Cüneyt Arkın barədə "o, 3 nəslin qəhrəmanı idi. Bu gün onu milyonlar son mənzilinə yola salır", söyləyib.

**Məlahət**

## Arzusunda olduğu toy mərasimini bəysiz keçirdi

### Yasemin Ece Şengül bəy-gəlin rəqsini öz atası ilə oynayıb



**Türkiyənin Kocaeli şəhərinin sakini Yasemin Ece Şengül özünə bəysiz toy şənliyi keçirib.**

Oxu.az xəbər verir ki, 30 yaşlı qadın uzun müddət arzusunda olduğu gəlinlik paltarını geyinərək valideynlərinin onun üçün təşkil etdikləri mərasimə gələn qonaqların qarşısına çıxıb.

Gəlinliklə şadlıq sarayına daxil olan Yasemin Ece Şengül bəy-gəlin rəqsini öz atası ilə oynayıb.

Daha sonra şənliyin tortu kəsilib, tədbirin sonunda qadın gül çələngini öz rəfiqələrinə tərəf atıb.